`

İlham İLHAMİ

İlham Sabir oğlu Haqverdiyev. 1957-ci il iyul ayının 27-də Astara rayonunun Təngərüd kəndində dünyaya göz açmışdır. S.Vurğun adına Təngərüd kənd orta məktəbini bitirmişdir. Uzun müddət sürücü və mexanizator işləmişdir. Bir neçə sənəti mükəmməl bilir. Üç övladı vardır. Təngərüd kəndində yaşayır. Şerləri Respublika mətbuatında dərc olunmuşdur. Bu şeirlər kitabı İlhaminin şersevənlərlə ilk görüşüdür.

İLHAM İLHAMİ

SÖZDƏN

BİNA TİKDİM

GƏNCƏ-2004

Redaktor: Tarif ƏSGƏR

Tərtibat: E.İSAYEV

İlham İLHAMİ

SÖZDƏN BİNA TİKDİM, 172 səh

© "Gəncə Poliqrafiya" ASC, 2004

ÖN SÖZ

POETİK DUYĞULAR ŞAİRİ

(redaktordan)

Bir ilin söhbətidir. Bir gün "Alov" jurnalının redaksiyasına orta yaşlı bir nəfər gəldi. O, çox sadə və səmimi insan idi. Özünü təqdim etdi – İlham İlhami. Bir neçə şer dəftərini bizə verdi. Dedi ki, şerlər yazıram. Xahiş edirəm oxuyun. Bəyənsəniz çap edin. Biz onun şerlərini oxuduq. Bəyəndik. "Alov" qəzetində və jurnalında çap etdirdik. Elə həmin gündən şair İlham İlhami ilə əsl dostluğumuz başlandı. Onun ən yaxşı xüsusiyyətlərindən biri də özünə qarşı tələbkarlığı və edilən məsləhətlərdən özü üçün nəticə çıxarmasıdır...

Bir həftə bundan öncə şair İlham İlhami çapa hazırladığı "Sözdən bina tikdim" şerlər məcmuəsini bizə təqdim etdi. Sözün düzü mən buna çox sevindim. Sevindim ki, rayonumuzda qələm sahiblərinin cərgəsinə daha bir istedadlı şair daxil olur. Mən "Sözdən bina tikdim" şerlər toplusunu sevə-sevə və ürəkdən oxudum. Sözün düzü məcmuədəki şerlər mənim çox xoşuma gəldi. Yadıma Azərbaycanın görkəmli yazıçı və tənqidçisi Mehdi Hüseynin aşağıdakı kəlamlar düşdü: "Şair, insan sevincinin ən çevik ifadəçisidir, bu səbəbə görə də əsl şair üçün mövzu məhdudluğu yoxdur!"

Mən şair İlham İlhaminin bu şerlər kitabını oxuduqdan sonra bir daha bunun canlı şahidi oldum. Yaxşı bilirik ki, müasir poeziya şairlərimizin qarşısında böyük tələblər qoyur. Şair bu tələblərə məsuliyyətlə yanaşmalı dövrə daha layiqli sənət əsərləri yaratmalıdır. İlham İlhami bir şair kimi çalışır ki, gördüyü və müşahidə etdiyi həyat hadisələrini tərənnüm etsin. Hiss edirik ki, onun yaradıcılığı hər cəhətdən – həm məzmun, həm də forma cəhətdən oxucunun diqqətini özünə cəlb edir. Açığını deyim ki, İlham İlhaminin şerlərində orijinallıq hakimdir. Şerlərin əksəriyyəti sadə, səmimi, yeni fikir və ifadələr misraların canına hopmuşdur. Bu şerlər bir daha sübut edir ki, İlham İlhami ilhamlı şairdir. Onun üçün mövzu kasıblığı yoxdur. O, hansı mövzuda şer yazırsa müvəffəqiyyət qazana bilir. Fikrimizə aydınlıq gətirmək üçün şairin Azərbaycan Respublikasının ölməz prezidenti Heydər Əliyevə həsr etdiyi "Güclü rəhbər" şeri təqdirəlayiq sənət nümunəsidir:

O, seçilmiş bir dühadır,
Tanrı göndərmişdir bizə.
Güclü rəhbər, o arxadır
Xalqımıza, elimizə!

Şair İlham İlhaminin yaradıcılığında alliqorik əsərlər xüsusi yer tutur. Onun bu mövzuda yazdığı şerlər daha çox oxunaqlı və yadda qalandır. Bizə yaxşı məlumdur ki, Azərbaycan ədəbiyyatında alliqorik əsərlərin banisi böyük klassik şairimiz Əfsələddin Xaqani olmuşdur. Xaqanidən sonra Azərbaycan ədəbiyyatında alliqorik şer növü bu günə kimi yaşayır və geniş oxucu kütləsinin hüsn-rəğbətini qazanıb. Şair İlham İlhaminin bu mövzuda şerlərini oxuyanda diqqətimizi daha çox cəlb edən həmin şerlərin dilinin sadəliyi və mövzu rəngarəngliyi oldu. Bu şerlər kitabı xüsusi məna və məzmun bəxş edir.bu qəlbdən şairin "İt və onun küçüyü" şeri fikrimizin əyani sübutu ola bilər. Şair yazır:

İt kiməsə hürüdü,
Küçük onu ötürdü,
Bunu hamı görürdü
Çoxu itə gülürdü!..

İstedadlı şair İlham İlhaminin yaradıcılığında məhəbbət lirikası xüsusi yer tutur. Onun məhəbbət şerləri dağ çaylarının suyu kimi təmiz, qranit kimi möhkəmdir. Bu şerlərdə klassik Azərbaycan ədəbiyyatının təsiri özünü göstərir. Bu şerləri oxuduqdan sonra bir daha yəqin edirsən ki, şair İlham İlhami həm şifahi xalq ədəbiyyatına, həm də aşıq ədəbiyyatına dərindən bələddir. Bu şerlərdə klassik şerdə olduğu kimi bütün şerin qayda-qanunlarına əməl edilmişdir. Misralardakı novatorluq, şah beytlər oxucunu necə də tilsimləyir. Onu da qeyd edim ki, İlham İlhamini məhəbbət poeziyası intim poeziya deyil. Bu poeziya saf məhəbbət poeziyasıdır. Və nikbin poeziyadır. Məhz bu məziyyətlərinə görə bu sevgi şerləri səni düşündürür və ürəkləri həyat eşqilə vurmağa vadar edir. Şairin bu şerinə müraciət edək:

Tazə-tər bir gülsən, üzündə jalə,
Dişlərin dürdanə, yanaqlar lalə.
Kirpiklər ox kimi, qaşların halə,
Gözünə olmuşam heyran Xəyalə!

"Xəyalə"

Bildiyimiz kimi klassik şerimizin gözəl nümunələrindən biri də qəzəl janrıdır. Müasir dövrdə qəzəl yazıb oxucuya təqdim etmək çox məsuliyyətli işdir. Belə bir məsuliyyətli işin öhdəsindən gəlmək hər şairə nəsib olmur. Ancaq mənə elə gəlir ki, məcmuədəki qəzəllər qəzəlin tələblərinə cavab verən gözəl sənət nümunələridir. Odur ki, bu qəzəllər yadda qalır və oxucunu düşündürür. Şairin "Eyləmə" qəzəlində oxuyuruq:

Sızıldama bülbül kimi, fəryad etmə gül üstündə,
Bir gülün ki, tikanı var o gülü heç yad eyləmə.

Dünya ədəbiyyatının görkəmli nümayəndələrindən biri Henrix Hayne vaxtıyla yazırdı ki: "Sənətdə forma və məzmun vəhdət təşkil etməlidir". Doğrudan da şair dostum İlham İlhaminin şerlərində forma və məzmun vəhdət təşkil edir. Odur ki, ilk baxışda məcmuədəki şerlər adama xoş təsir bağışlayır. Adam kitabdakı ilk şeri oxuduqdan sonra daha kitabı yerə qoymaq istəmir... Çalışırsan ki, kitabı tamam oxuyub bitirəsən...Bu da mənə elə gəlir ki, şairin ən böyük xoşbəxtliyidir.

Bütün bunlara baxmayaraq "Sözdən bina tikdim" kitabında kiçik nöqsanlar da diqqətimizi cəlb etdi. Ancaq bu təbiidir. Hələ bu kitab şairin ilk uğurlu möhkəm qədəmli addımıdır. İnanırıq ki, ilk addım gələcəkdə daha da möhkəm olacaqdır!..

Şair İlham İlhami poeziya eşqilə nəfəs alıb yaşayan narahat bir şairdir. Görkəmli Azərbaycan şairi Mikayıl Müşfiqin təbirincə desək onun ən bədbəxt dəqiqəsi şersiz keçən dəqiqədir!..

Poeziyanın yolları enişdi-yoxuşludur. Mən bu çətin və əzablı yollarda qələm dostuma yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Qoy poeziyanın şöhrət çələngi dostuma əbədi qismət olsun!...

Tarif Əsgər,
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
"Alov" jurnalının baş redaktoru.
27.IV.04.

KÖVRƏK ÜRƏK ÇIRPINTILARI

Qarşısında bir yığın şer əlyazması var. Şəfalı Astaranın zümrüd donlu Təngərüd kəndində doğulub boya-başa çatmış, sadə zəhmət adamı İlham İlhaminin şerləridir onlar. Onları birər-birər nəzərdən keçirdikcə, ilk növbədə, İlhamın öz adı kimi ilhamlı poetik nəfəsinin şahidi olursan. Şerlərdə istedadlı bir qələm sahibinin kövrək ürək çırpıntıları, yüksək bədii təxəyyülü, şairanə həyat müşahidələri qabarıq şəkildə hiss olunur.

İlham İlhaminin şer rübabı Vətənə, Torpağa, yaşadığımız zəmanəyə, insanlara sonsuz məhəbbət və ehtiram üzərində köklənmişdir. O, bəşəriyyətin nicat yolunu, doğma Azərbaycanımızın parlaq gələcəyini Heydər Əliyev kimi dünya şöhrətli dahi siyasətçidə və onun layiqli varisi möhtərəm Prezidentimiz İlham Əliyevdə görür və şerlərində bu parlaq həqiqəti dönə-dönə, böyük məhəbbətlə vəsf edir. Onun "Güclü rəhbər", "Vətən dardadır", "Layiqli davamçı", "İstedadlı siyasətçi", "Sevimli siyasətçi" və sairə şerləri məhz bu qəbildəndir. Çox fərəhlidir ki, İlham Əliyevin Prezident seçilməsini ilkin alqışlayan qələm sahiblərindən biri də İlham İlhamidir. O, "Uğurlar olsun" şerində yazır:

"Azərbaycan yaşasın,
Xoşbəxt olsun, var olsun!
Əziz İlham müəllim,
Sizə uğurlar olsun!"

İlham İlhaminin şer nümunələrini kitab üçün qruplaşdırarkən ona belə bir ad qoymağı təklif etdik: "Sözdən bina tikdim". Həqiqətən bu ad onun şerlərinin ruhuna, qayəsinə daha çox yaraşır. Kitab giriş və 3 bölmədən ibarətdir: "Həyat düşüncələri", "Sevgi şerləri, Qəzəllər və bayatılar" və "Uşaq şerləri və təmsillər". Həmin şerlərin hər birində İlhamın həqiqətən hər bir söz üstə əsim-əsim əsməsi, yeni fikir demək istəyi hiss olunur.

"Həyat düşüncələri" bölməsi şairin dünya, zaman, Vətən, bəzən xoş, bəzən ağrılı-acılı həyatımız barədə həzin düşüncələrinin bədii inikasıdır. Onun "Sözdən yazmaq istədim", "Astaramız gözəldir", "Yer və mən", "İnsanlar dəyişir", "Qorxuram", "Ana balaya qurban" və sair şerləri məhz bu nəcib niyyətdən xəbər verir. "Dəqiqliyə vurğunam" şerindəki

"Haqq-ədalət uğrunda
Edam olunan kəsdə,
Hətta ağır nəfəsdə
Titrəməyən bir səsdə
Dəqiqliyə vurğunam"-

kimi misralarda şairin səsi, nəfəsi, ilhamı daha da coşur, oxucunu mübarizəyə, haqq-ədalət naminə vuruşlara səsləyir.

İlham İlhami təbiəti çox sevir və onun gözəlliklərini dərin poetik müşahidələrlə qələmə almağı bacarır. Onun "Yağış yağır", "Payızdan bir xatirə", "Bu küləyin üzünə bax!", "Bahar gəlir", "Tənha palıd ağacı", "İlahidən qar gəlir" və sair şerlərində təbiət gözəllikləri sanki mahir bir rəssam fırçası ilə təsvir olunmuşdur. "Yer və mən" şerində o doğma torpağa sonsuz məhəbbətini belə izhar edir:

"İstəyirəm ölüm mən
Torpağa gömülüm mən,
Yer ilə qarışaraq
Bir planet olum mən!"

Sevgi, məhəbbət haqqında çox yazılıb. İlham da öz qələmini tez-tez bu ülvi mövzu üzərində sınayır, bəzən çox güclü lirik tapıntılara nail olur. Onun "Hamı səndən danışır", "Rəvanə", "Səni axtarıram", "İlhamı sevsəndə", "Ürəyim tutub səni", "Mənim gülüm, bənövşə", "Bu sevgi üzür məni", "Xəyalə", "Reyhanə" və sair şerlərində qəlbən sevən bir aşiqin ürəkdən gələn duyğuları dilə gəlib haray çəkir. Eşqin əzəmətini, qüdrətini, gücünü, görün o, "Acıq verdim küləyə" şerində necə gözəl ifadə edir, sevgilisini quduz küləyin əlindən almaq məqsədilə o:

"Mən atıldım köməyə,
Güc yetirdim küləyə
Yarımı qucaqladım
Acıq verdim küləyə!"

- deyə hayqırır.

İlham İlhaminin qəzəlləri də mövzu və məzmun baxımından diqqətəlayiqdir. O, klassik janr olan çətin qəzəl janrının, demək olar ki, əksər bəhrlərindən yaradıcılıqla qidalanır və bu janrda da nəsə təzə söz demək istəyir:

"İlham razı bu sevgidə, Böyük qadir Allahından
Tanrı qismət etmiş ona gülərüzü, Allah haqqı!"

- kimi misralar dediklərimizə bariz sübutdur.

Onun uşaq şerləri və təmsilləri də maraqla oxunur. İlham uşaq aləminə dərindən bələddir, balaların gələcəkdə əsl vətəndaş olması üçün bədii sözün qüvvəsindən məharətlə istifadə edib, onlara doğruçuluq, düzlük, Vətənpərvərlik hissləri və digər mənəvi keyfiyyətlər aşılamağa çalışır. O, bitki və heyvanat aləminin rəngarəngliyi və çalarları ilə də uşaqları heyrətləndirməyə səy edir. "Bizim xoruz" şerində,

"Tükləri rəngbərəngdir
Bizim xoruz qəşəngdir
Məğrur-məğrur yeriyir
Generala bənzəyir!"

bəndindəki bənzətmə necə də yerinə düşüb! Elə deyilmi?!

Çox yaxşı haldır ki, İlham tez-tez xalq nağılları, rəvayətləri və əfsanələrini də mənzumlaşdırıb lirik şəklə salıb və balacalara təqdim edir. Onun "Ana və bala dovşanlar", "Tülkü sağ qaldı", "Siçanların tədbiri", "Siçanlar və yalançı pişik" və sair şerlərində bu uğurlu cəhdin şahidi oluruq.

Bütün bunlarla bərabər, deməliyik ki, İlham nəhəng sənət ümmanına baş vurmaq üçün öz üzərində çox işləməli, klassiklərdən, qabaqcıl şer nümunələrindən dolğun bəhrələnməlidir. Onun mövzu dairəsində hələ kasadlıq hiss olunur, bəzi şerlərdə dil, üslub yöndəmsizliyi var. O, şeri poetik imkanlarına daha çox istinad etməli və müasir insanın mənəvi-psixoloji iş dünyasına şair gözü ilə baxmalıdır.

Beləliklə, sadə, zəhmətkeş, istedadlı bir insanın səmimi ürək duyğularını Sizə təqdim edirik. Əziz oxucular, yəqin ki, xoşunuza gələcək!

Seyran Şiriyev,
Şair, Şəhriyar mükafatı laureatı.

UĞUR OLSUN!

İlhamın şerləri ilə ilk tanışlıqdan sonra onun maraq dairəsinin həcmini, biçimini, rəngini duymağa çalışdım. Məni daha çox düşündürən onun şerlərindəki uşaq aləminin təsviri oldu. Heyranlıq, heyrət, təəccüb, sevinc və sair hisslər.

Uşaqlar üçün yazdığı şerlərin dili sadə olduğu kimi, həm də məna yükü ilə yüklənmişdir. Əlbəttə, bu onun uşaq dünyasına yaxşı bələd olmasından irəli gəlir.

Onun "Kirpidən küsdü" adlı şerinə diqqət edək. Aşur bir kirpi tutub evə gətirir, balaca Cavid ilk dəfə kirpi gördüyü üçün onu yumaq sanır. Sonra kirpinin canlı olduğunu, hərəkət etdiyini görüb, ona sığal çəkmək istəyir:

İstədi çəksin
Sığal belinə
Batdı tikanlar
Onun əlinə

və Cavid ağrıdan ağlayıb kirpidən küsür. Bu şerdə uşaqların canlı aləmlə-təbiətlə tanışlığını həssaslıqla qələmə alaraq oxucuya çatdırır. "Qaragilə", "Mənim babam", "Babama köməkçiyəm", "Gərək nənəyə deyim..." şerləri də bu qəbildəndir. Ümumiyyətlə İlham şerlərində nə demək istədiyini bilir. Ancaq necə demək, bədii ifadə vasitələrindən necə istifadə etmək bacarığını daha da gücləndirməlidir.

Şer yolu çətin və məsuliyyətli yoldur. Mən bu yolda İlhama uğurlar arzulayıram!

Aqil Yaqub,
Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair.

GÜCLÜ RƏHBƏR

Xalq qarışıb bir-birinə
Çalxalanır, dalğalanır
İzdihamda bu meydanda
Bir dənizi xatırladır.
Kütlə bu an aram tapır
Rəhbər kürsüdən danışır
Dəniz daha dalğalanmır.
Sən insanda bir gücə bax
O, ümmanı dayandırır
Sözdə məntiqə, gücə bax,
Xalq mənadan ovsunlanır
İnsanlarda vəhdətə bax
Necə də sıx birləşirlər
Birləşirlər bir bədən tək
Rəhbərisə baş bilirlər.
Eşidilər milçək uçsa
Düşməz yerə, atsan iynə
Rəhbər şəxsin əzəməti
Bilinər xalqın içində
O, seçilmiş bir dühadır
Tanrı göndərmişdir bizə
Güclü rəhbər, o arxadır
Xalqımıza elimizə.
İndi neçə ildir keçir
Ölkə sürətlə dirçəlir
Dahi rəhbər bacarıqla
Xalqına xidmət eyləyir
Onu ürəkdən sevirlər
Seçkisiz də səs verirlər
Fenomeni, bu dühanı
Ölkəmizə tac bilirlər
Rəhbər güclü olsa o xalq,
Millət xoşbəxt yaşayacaq
Rəhbər və xalq sıx birləşib
Gündən-günə ucalacaq!

VƏTƏN DARDADIR!

Dağlara baxıram ilhamım coşmur
Çöllərin üzündə sevinc dolaşmır
Çaylar da çağlamır, aşmır da daşmır
Vətənin torpağı işğal altdadır!

Üzlərə baxıram, üzlər qəmgindir
Üzlərdə qırışlar, damar gərgindir
Bu Vətən həm mənim, həm də sənindir,
Vətənin torpağı işğal altdadır!

Kənddə yox əvvəlki, bar da, bəhər də
Evsiz-eşiksizlər artıb şəhərdə
Çadırda yaşayan min cürə dərddə
Vətənin torpağı işğal altdadır!

Hələ şər xeyirə güc gəlməkdədir
Əyrilər düzləri hey əyməkdədir
Düşməni alnından vurmaq gərəkdir
Vətənin torpağı işğal altdadır!

Fələyin gərdişin dəyişmək gərək
Qırata, Bozata əyləşmək gərək
Vətəni sevənə ərləşmək gərək
Vətənin torpağı işğal altdadır!

Ölkə rəhbərini biz dəstəkləyək
Müdrik ağsaqqala yekdil səs verək.
Düşmənin üstünə birlikdə gedək
Vətənin torpağı işğal altdadır!

ASTARADA

Saçlarını darar səhər
Günəş olsa da harada
Çimər dənizdə, boylanar
Tutar qərar Astarada.

Çox gözəldir təbiəti
Xatırladır lap cənnəti
Tanrı vermiş hər neməti –
Meyvə, nübar Astarada!

Nərə üzər dəryasında
Qartal süzər səmasında
Yaşıl yarpaq arasında
Naringi, bar Astarada.

Çox olmuşdur qəhrəmanlar
Bu bölgədə hər zamanlar.
Mərd yaşamış, köçmüş onlar
Tarixi var Astarada.

Qəhrəman Mirzə, İlyanı
Heç kim unutmaz Ziyanı
Burda zəhmət iz qoyanı
Doğma sanar Astarada

Dağlarda gəz, dənizdə üz
Qartal kimi səmada süz
Çiçəklər dər, güllərdən üz
Bir büsat var Astarada!

****

HƏYAT DÜŞÜNCƏLƏRİ

****

SÖZdən yazmaq istədim

Söz! Deyəndə fikirlər
Məni möhkəm çəkirlər.
Mənalı sözlərilə
Dahi olur şairlər
Söz! Deyilən məfhumda
Keçmiş, tarix yaşayır
Sən gücə bax ki, onda
Şerlə fikiri yayır.
Sözdə qüdrətə bax ki,
Yazdı şair Nizami
Həqiqəti mədh etdi
Dahiliyi fəth etdi.
SÖZ haqqında düşündüm
Daha məğrur göründüm.
Fikirlərim quş kimi
Göydə uçurmuş kimi
Sonsuz fəzalardadır,
Sözün sonu hardadır?
Bunu bilə bilmədim!
Özüm göydən enmədim
Sözdə qalmaq istədim
Qüvvət almaq istədim
Qəlbimdəki, kədəri
Sözlə atmaq istədim
Dünyada var-dövlətə
Sözlə çatmaq istədim...

Mənaları çox imiş
Sözün sonu yox imiş!
SÖZ! Qiymətli bir almaz,
Xırdalamaq yaramaz
Sözü qanmayan üçün
Sözə yanmayan üçün!
Sözdən yazmağa qorxdum
Görüb sözdəki, gücü

Mən qorxunu unutdum.
Özümü möhkəm tutdum.
Sözdə gördüm ki, güc çox
Bildim, mənə qorxu yox!
Sözdəki güclü zərbə
Qalib gələr lap hərbə!
SÖZdən yazmaq çətindir
Düz söz deyən mətindir.
Düzlə yalan sözləri
Ayırmaq adətimdir.
SÖZdən yazmaq istədim,
Söz danışmaq istədim.
İlhamla, yavaş-yavaş
Şerlə sözüm söylədim.

SÖZDƏN BİNA TİKDİM

Sözdən tikmək bir bina
Çox gözəl etmək inşa
Fikrinə düşən kimi
Mən başladım bu işi.
Əvvəl torpaq sahəsi –
Yəni mövzu axtardım.
Mövzunu tapan kimi
Məna – qumu aradım.
Məntiq – sement, məna – qum
Mən bunları yoğurdum
Amal - əhəng hopdurdum.
Hədd ipini çəkərək
Amal, məntiq və məna
Məhlulunu tökərək
Söz – kərpici düzdüm mən.
Tikdim elə bir bina
Olunmamış heç inşa!
Bina mənim özümdə -
Tikilmişdir qəlbimdə.
Yaşamaqçın binada
Daha gözəl mənada,
Mənim nə tikdiyimi
Demək istədiyimi
Bilmək üçün gərək sən,
Şerimi dərk edəsən!

ÖLDÜ BÜLBÜL

Otağa daxil olmuş
Açıq pəncərədən quş
Qanadların açaraq
Ora-bura uçaraq
Onu tutmaq istəyən
Kiçik qızdan qaçaraq,
Hərdən harasa qonur,
Sonra yerindən qopur
Azadlığı itirmək,

Dəmir qəfəsə girmək
Sanki, o istəmirdi.
Çıxmağa tələsirdi
Dar otağın içindən
Qızcığazın əlindən...
Uçdu, uçdu yoruldu,
Əsir düşdü, tutuldu
Quşların ən gözəli
Gözəl səsin əzəli
Güllərin yarı bülbül
Sinəsi sarı bülbül...
Kiçik qızın şən səsi
Quş üçün sevinməsi
Eşidiləndə artıq,
Quşun kəsildi səsi
Canının titrəməsi
Ürəyinin əsməsi.
Getdi, daha gəlmədi
Kiçik quşun nəfəsi!..

OĞLUMA CAVAB

Bir dəfə şer yazırdım
Mən siçandan, pişikdən
Oynayırdım nəvəmin
Əllərilə beşikdən.
Yazandan sonra şeri
Mən düşündüm bir xeyli,
Oğlumun istəyini –
Dilə gətirdiyini:
-Ata, siçan, pişikdən
Sən şerlər yazırsan.
Başqa şer bacarmırsan?
Dəyişdim ki, mövzunu
Razı salım mən onu
Söz haqqında yazdım şer
Oğlum dedi, ata, xeyr!
Səni başa düşmədim,
Şeri duya bilmədim.
-Oğul bala, bil ki, sən
Yeddidə oxuyursan.
Siçan, pişik mövzusu
Quş tək uçmaq arzusu
Təkköz divin qorxusu
Nağılların çoxusu
Bənövşənin qoxusu
Təbiətin duyğusu
Ağ ayının yuxusu
Quşların şən oxusu
Sənincün maraqlıdır,
Sənə daha yaxındır.
Mənim düşüncələrim
Bil ki, axın-axındır,
Bil ki, axın axındır!..

QORXURAM

Şer yazmaqdan qorxmuram
Pis yazmaqdan qorxuram
Dost olmaqdan qorxmuram
Ayrılmaqdan qorxuram!

Mən haqqın tərəfində
Dayanmaqdan qorxmuram,
Həqiqətin yolunda
Uduzmaqdan qorxuram!

Dəli bir məhəbbətlə
Mən sevməkdən qorxmuram,
Yetməyib səadətə
Köç etməkdən qorxuram!

Mənlə üzbəüz duran
Mərd düşməndən qorxmuram
Məni arxadan vuran
Bir namərddən qorxuram!

Üstümə hücum çəkən
Heç kimsədən qorxmuram,
Mənə naxələf çıxan
Övladımdan qorxuram!

Dişi zəhər ilandan
Mən bir belə qorxmuram,
Daim dava salandan –
Bir yalandan qorxuram!

İblis olsun, ya kabus,
Heç birindən qorxmuram,
Dili zəhər, alagöz,
Bir gözəldən qorxuram!

Əqidəmdə dəmir tək –
Ləyaqətim, qorxmuram.
Məni xəcil edəcək
Öz nəfsimdən qorxuram!

Mən deyirəm sözümü,
Danışmaqdan qorxmuram.
Anlamayan düzümü –
Naşılardan qorxuram!

Dişi ətə işləyən
Canavardan qorxmuram,
Yiyəsini dişləyən
Nankor itdən qorxuram!

Göz itirsə işığın
Bəlkə də mən qorxmuram,
Dünyaya qaranlığın
Çökməsindən qorxuram!

Davada top-tüfəngdən
Bombalardan qorxmuram,
İgidlərin cənglərdə
Həlakından qorxuram!

Yer günəş rəhbərindən
Narazısa, qorxmuram.
Yerin öz məhvərindən
Çıxmasından qorxuram!

Yarın öz yarısına
Cəfasından qorxmuram.
Ananın balasını
Atmasından qorxuram!

Gecə-gündüz deyinən
Bir qadından qorxmuram,
Pambıq ilə astaca
Başkəsəndən qorxuram!

Mənim nə dediyimi
Kimsə başa düşməsə
Buna görə qorxuram,
Buna görə qorxuram!..

ASTARAMIZ GÖZƏLDİR

Xəzərin sahilində
Qədim Talış elində
Azəri ölkəsində
Astaramız gözəldir!

Sevimlidir, əzizdir
Küçələri təmizdir.
Bura şəhərimizdir,
Astaramız gözəldir!

Uşaqlar və cavanlar
Qəlblərində sevgi var –
Vətəni sevir onlar,
Astaramız gözəldir!

Vardır hər cürə bitki,
Limon, dəfnə, naringi
Hərəsinin öz rəngi
Astaramız gözəldir!

Ağacları yaşıldır
Şəhərə yaraşıqdır

Xoşbəxt yaşayacaqdır,
Astaramız gözəldir!

ÖZ ÖLKƏMİ SEVİRƏM

Dünyada gözəl ölkə
Ölkədə gözəl bölgə
Bölgədəki kəndlərin
Abad, gözəli bəlkə
Mənim kəndlim, evimdir.
Yaşadığım yerimdir.
İnsanların gözəli
Mənim ellilərimdir.
Kəndimlə fəxr edirəm
Bölgəmlə fəxr edirəm
Sevdiyim insanlarla
Ölkəmlə fəxr edirəm!

DƏQİQLİYƏ VURĞUNAM

Planet sistemində
Yerin öz çevrəsində
Hərəkət etməsində
Günəşin dövrəsində
Dəqiqliyə vurğunam!

Yorulmadan işləyən
Saatların işində
Yerin peyki olaraq
Ayın da gərdişində
Dəqiqliyə vurğunam!

Bir yaşayış evində
Mətbəxdəki, üzlükdə
Əksimizə güzgüdə
Hasardakı düzlükdə
Dəqiqliyə vurğunam!

Satıcının işində
Zərgərdə sərraflığa
Mişarın dişlərində
Qızıldakı saflığa
Dəqiqliyə vurğunam!

Naringi sahəsində
Balığın kürüsündə
Kolların cərgəsində
Qarışqa sürüsündə
Dəqiqliyə vurğunam!

Ucaqdan paraşütlə
Tullanaraq sürətlə
Hər hansı bir nöqtəyə
Enən kəsdə cürətə

Dəqiqliyə vurğunam!

Haqq-ədalət uğrunda
Edam olunan kəsdə
Hətta ağır nəfəsdə
Titrəməyən bir səsdə
Dəqiqliyə vurğunam!

Bətnində vermiş həyat
Körpəni etmiş xilas
Doqquz ay, doqquz saat
Qadınlara olan xas
Dəqiqliyə vurğunam!

Şeri fikirləşərkən
Sözdən bina tikərkən
Məna ilə bəzəyib
Binaya rəng çəkərkən
Dəqiqliyə vurğunam!

Fikir ifadəsində
İlhamın sözlərində
Ovunu axtararkən
Qartalın gözlərində
Dəqiqliyə vurğunam!

YARADAN – ANA

Allah bizi ucaltdı
İnsan kimi tanıtdı
Sonralarsa insanı
Ana – qadın yaratdı.

O vaxtdan qadın-ana
Çevrilmiş yaradana
Allah vergisi onda
Hamı borclu anaya.

Meyarıdır dözümün
Gecə-gündüz gözünün
Nurun südlə içirdir
Balasına özünün!

Ən güclü istək onda
Ən geniş ürək onda
Ana-bala sevgisi
Yenilməzdir dünyada!

Ana haqda şer demək
Olar tərif söyləmək
Amma zəhmətlərini
Mümkün deyil ödəmək!

Ana gözəl bir mələk,

Bu mələyə biz gərək
Ömür boyu, hörmətlə
Səcdə edək, baş əyək!

İNSANLAR DƏYİŞİR

Hansısa bir ağacda
Meyvətək yetişirik
Yetişərək sonra biz
Bir ağactək bitirik

Biz də ağaclar kimi
Meyvələr yetiririk
Yenə də ağac kimi
Nəsillər dəyişirik

İllər də dəyişəndir.
Aylar da dəyişəndir
Gecəylə gündüz kimi
Adamlar da dəyişir

Adamlar tez dəyişir
Kimi insan tərəfə
Kimi ot tək əyilir
Külək əsən tərəfə

Yer üçün Günəş əziz –
Sevgisini dəyişmir.
Fırlansaq da birgə biz,
Fərqlidir mövqeyimiz!

YER VƏ MƏN

Yerdən yoğrulmuşuq biz
Yerdə doğulmuşuq biz
Planetlər içində
Yerlilər olmuşuq biz

Xəyalımda uçuram
Ulduzlara qonuram
Planetlər içində
Yerə məftun oluram!

Yerə nankor olanlar
Yeri viran qoyanlar
Bir vaxt peşman olarlar
Yeri bombalayanlar!

Yer mənim dayaq nöqtəm
Ayağım yerdə möhkəm.
Mən yersiz olsam, olmaz,
Nə vətənim, nə ölkəm!

İstəyirəm ölüm mən,

Torpağa gömülüm mən,
Yer ilə qarışaraq
Bir planet olum mən!

SEVGİDƏN YAZ, DEDİ

Bir dost məni dinlədi
İradını söylədi
-Sevgidən, məhəbbətdən
Vəfadan, sədaqətdən
Vüsaldan, səadətdən
Şerlər yazsan sən əgər,
Şerin olar bal, şəkər.
Səni şair bilərlər
Hörmət edib sevərlər.
-Mən siçandan, pişikdən
Bal arısı, pətəkdən
Xallı kəpənəklərdən
Bənövşə, gül-çiçəkdən
Hərdən söhbət açıram,
Uşaqlara yazıram.
Diqqət etsən görərsən
Mənim hər şerimdə sən;
-Anaya məhəbbəti
Övlada nəsihəti
Xəyanətə nifrəti
Vətənə sədaqəti
Böyüklərə hörməti
Şairlərə qiyməti
Qorumaq təbiəti
Düz söz, səmimiyyəti.
Budur məndəki sevgi...
Qadınlara sevgini
Nəzərdə tutursan sən?!
Haçansa sevmişəm mən
Böyük məhəbbət ilə.
Bəlkə indi də hələ
Ürək dolu eşq ilə
Amma, bununla belə
Mən xəcalət çəkirəm
Eşqi dilə gətirəm...
Sevgini, məhəbbəti
Mən dilimlə demirəm,
Sözlə bəyan etmirəm.
Neynirsən sözlərimi?!
Seyr etsən gözlərimi
Ürəyimi görərsən,
Sevgimi hiss edərsən!
Gözlər görən bir işi
Demək olarmı söznən
Yazsam düşərəm gözdən.
Qadına olan sevgi
İlahidir, ülvidir.
Bu sevgidən danışmaq

İkilikdə - gizlidir,
Sevənlərin işidir!

YAĞIŞ YAĞIR

Yağışa bax, yağışa
Sanki, girib yarışa
Damlalar bir-birini
Ötür, qarışa-qarışa

Damlalar düşür göydən
Buludlardan, sərindən.
Damlaları ayırmaq
Çətindir bir-birindən.

Yağışın mahnısını
Xəlif şırıltısını
Dinlədikcə anıram
Körpə mışıltısını

Küləyin əsməməsi
Yağışın çisəməsi
Mənə rahatlıq verir,
Damlaların nəğməsi

Meşəyə yağış yağır
Hər bir bitki islanır.
Rəngi solmuş yarpaqlar
Rəng alır, yaşıllanır

Yağış yağır, ağaclar
Sudan sirab olurlar.
Bu ilki quraqlıqı
Yavaşca unudurlar.

O GÜN, GƏLƏCƏK!

Xain düşmən qovular
Qarabağ azad olar
Şəhərlər abad olar
O gün hökmən gələcək!

Xalqım bayram edəcək
Bir-birini öpəcək,
Gözün aydın, deyəcək,
O gün hökmən gələcək!

Yaşayış olar rahat,
Körpələr sağ-salamat
Boy atacaq hər saat
O gün hökmən gələcək!

Cavanlar Yallı gedər
Gözəllər şadlıq edər

Uzaq olar qəm, kədər,
O gün hökmən gələcək!

Evlərinə dönərlər
Sevilərlər, sevərlər
Toy edib evlənərlər
O gün hökmən gələcək!

Dünya düzələr qardaş,
Ümidlə, yavaş-yavaş.
Qurtarar dava, dalaş
O gün hökmən gələcək!

İlham yazdı şer ilə
Ürəyində qəhr ilə
Deyirəm ki, səbr elə
O gün hökmən gələcək!

MƏN İŞIĞI SEVİRƏM

Hansı rəngi sevirsən?
Məndən etdilər sual
Bu sualın cavabın
Deyə bilmədim dərhal.
İşıq var olan yerdə
Bütün rənglər gözəldir.
Dünyadakı rəngləri
İşıq özü düzəldir
Əsasda işıq durur –
İşıqdan rəng alınır.
İşıq olmayan yerdə
Rənglər ayırd olunmur.
Rəngsiz olsa da işıq
Onsuz dünya qaradır
Allahdan gəldiyindən
Yerdə həyat yaradır.
Sualın cavabını
Mən verməyə çalışdım,
Bu dünyanı işıqla
Anlamağa alışdım.
İşığın mənbəyini –
Mən günəşi sevirəm,
Allahdan gəldiyindən
Ona səcdə edirəm!

PAYIZDAN BİR XATİRƏ

(20 il əvvəl)

Hava tutqun, buludlu
Bircə yarpaq tərpənmir,
Ağaclar arasından
Səma aydın görsənmir.
Payız gəldi, yarpaqlar
Yavaş-yavaş saralır

Günlər qısalmaqdadır
Hava erkən qaralır.
Meşədəki palıdlar
Hamıya üstdən baxır.
Dərədən səs salmadan
Kiçicik bir çay axır.
Cır əzgillər yetişib,
Qaragilə yumşalıb
İtburnu qıp-qırmızı
Əl dəyilməmiş qalıb.
Haradansa uzaqdan
Naməlum bir səs gəlir.
Yəqin ağacdələndir,
Ağacda qabıq dəlir.
Bir ağacda bir dələ
Nəyi isə gəmirir
Maraqla baxır mənə
Quyruğu da bir şələ
Meşəni seyr edirəm
Bir cığırla gedirəm
Birdən mənlə üzbəüz
Gələnləri görürəm.
Məni görür, çığırır
Öndə gedən "həyacan!"
Ağaclara dırmaşır,
Bütün balalar o an
Heyvanlara baxıram
Yerimdə karıxıram,
Sən demə yenot imiş
Gördüyüm bu heyvanlar
İtə də, pişiyə də
Çox oxşayırlar onlar
Meyvədən quşlaradək
Hər şeyi yeyir bunlar
...Mən yolumla gedirəm
Meşəni seyr edirəm
İri, yekə dişləri
Xatırladan buynuzu
Bir neçə çöl donuzu
Yeri sanki, şumlayır
Ya soxulcan axtarır,
Ya da bitki kökləri,
Esir yerdən çıxarır.
Dərədəki çayda su
Göz yaşıtək dumduru
Çayın yolu daralmış
Xatırladır nohuru
Bu nohurdan aşağı
Sürət ilə axır çay
Dənizə qovuşmaqçün
Elə bil darıxır çay.
Qarşı tərəfdə meşə
Durub üzü enişə
Xırda ağaclar möhtac,

Həsrət durub, günəşə!
Burda adam sıxılır
Açıqlığa can atır
Cığır yolsa yolçunu
Seyrəkliyə aparır.
Dağlıq-meşəlik yerlər
Payızda gözəl olur,
Qışın əvvəllərində
Dopdolu xəzəl olur.
...Çox gözəl bir yerdəyəm
Elə bil ki, göydəyəm
Burdan hər yer görünür
Xəzərin seyrindəyəm.
Təngərüd meşəsinin
Ən hündür nöqtəsindən
Tarlalara baxıram
Dağın lap təpəsindən
...Yağış daha dözməyir,
Yavaş-yavaş çisəyir.
Adam burdan baxdıqca,
Seyrə dalmaq istəyir...

GÜLDƏN GÖZƏL OLURMUŞ

Gəlin kimi bəzənir
Gül gəlinə bənzəyir.
Gör necə ləçəklənir.
Ləçəkləri qırmızı
Sanki deyildir razı
Gül üzünü görsünlər
Sonra gedib desinlər,
Gəlin açıq-sacıqdır,
Üzü tamam açıqdır!
Axı, gəlin həyalı
Yar havalı, sevdalı
Üzü aydan da arı
Öpə bilər öz yarı!
Gəlin gülə bənzəmir
Gül gəlinə bənzəyir.
Çünki abır, həya, ar,
Hamısı gəlində var
Sanki, ətirlənməyi
Gül gəlindən öyrənib,
O, möhkəm ətirlənib...
Gəlində tikan olmaz,
Tikan kimsəyə batmaz
Gəlin şüşətək hamar,
Güldə isə tikan var!
Gəlin büllurtək safdır
Düz söyləmək insafdır
Belə olurmuş gəlin,
Güldən də gözəl, bilin!

MUĞAMI MUĞAM EDƏN ...

Muğamı muğam edən
Tar ilə tarçalandır.
Tar meydanda yoxdursa
Demək muğam yalandır.
Muğamat çatır sona
Alqışlanır xanəndə
Daha çox alqışlara
Layiqdir tarçalan da
Tarı hər çalan çalar
Bəlkə yüksək ad alar
Xanəndəylə həmahəng
Tarı az adam çalar.
Məmnun olmaz oxuyan
Tar geciksə bircə an
Yəqin ki, müşkül olar
Naşıdırsa tarçalan.
Beləliklə hər üçü
Olmalıdır çox güclü
Təşkil etsələr vəhdət
Muğam sevilər, əlbət!

BU KÜLƏYİN ÜZÜNƏ BAX!
(güclü, küləkli bir havanın təsviri)

Neçə gündür durmur, əsir
Sanki harasa tələsir
Xalqı edib, əsir-yesir,
Bu küləyin üzünə bax!

Yarpaqları yel qoparır
Göydə gör nələr aparır?!
Yolla gedən, yoldan sapır,
Bu küləyin üzünə bax!

Uşağa bax, dərsdən gəlir
Gah əyilir, gah düzəlir
Uşaq yolla gedə bilmir
Bu küləyin üzünə bax!

Naməlum şəxs yolla gedir
Gah irəli, dala gedir
Külək onu yoldan edir
Bu küləyin üzünə bax!

Sərv ağacı boyun əyir
Təpəsi lap yerə dəyir
Kökündən qopmaq istəyir
Bu küləyin üzünə bax!

Sınır ağacdan, sürüşür
Palıddan bir budaq düşür
Səsinə itlər hürüşür

Bu küləyin üzünə bax!

Boğaz quru, qəhər kimi
Ovqat təlxdir, zəhər kimi
At oynadır kəhər kimi
Bu küləyin üzünə bax!

«Gərmic» deyirlər adına
Girdimi evin damına
Allah çatsın imdadına
Bu küləyin üzünə bax!

Hər nə gəldi çalır, çapır
Hətta mıxdan da qoparır
Qaldırdımı, o aparır
Bu küləyin üzünə bax!

İstəyirsən paraşüt tax
Bu küləklə havaya qalx
Uça-uça, seyr elə, bax
Bu küləyin üzünə bax!

Allah dadımıza yetsin
Bu küləkdən xilas etsin
Qoy bu külək getsin, itsin
Bu küləyin üzünə bax!

İlham düşüb evdə xəstə
Hirsli-hirsli, əsə-əsə
Şeri yazdı, bəlkə kəsə
Bu küləyin üzünə bax!

Hələ yazmaq olardı çox
Boğaz quru, heç taqət yox
Küləkdən yox, Allahdan qorx,
Bu küləyin sonuna bax!

TOYDA DAVA DÜŞDÜ

Qonşuluqda bir gülü
Təmtəraqla dərdilər
Xanəndəyə Bakıda
Dəvətnamə verdilər
Quruldu böyük məclis,
İşləyirdilər səlis,
Həm kababçı, çaysüzən,
Stol üstə qab düzən
Yavaş-yavaş, ahəstə,
Məclis oldu arəstə.
Musiqi dilə gəldi
Toydakılar dirçəldi.
Oxuyarkən xanəndə,
Yaxşı çaldı tarzən də.
Alqışlandı tarçalan,

Lap çox oldu əl çalan.
Əl atıldı arağa
«Fanta» getdi qırağa

Beyinlər dumanlandı
Boş şüşələr qalandı.
Hamı özündən razı
Eylədilər «zakazı».
Biri dedi, zurna, çal,
Nə deyirəm durma, çal!
Toybəyini səslədi,
Biri yallı istədi
Düşdü böyük bir dava
Tozla qarışdı hava
Toy mağarın yıxdılar
Şənliyi dağıtdılar
Məclisə son qoyuldu
Səbəbkar araq oldu!

ANA BALAYA QURBAN

Televizorda biri
Oxuyurdu bir şeri
Əvvəlini görmədim
Şer kimindir, bilmədim.
Anasını sevirdi
Şerdə belə deyirdi:
«-Qurbanlıq qoyun olum
Anam üçün soyulum»
Misra mənə toxundu
Şer hələ çox oxundu
...Bəlkə, mənim oğlumdu,
Bu sözləri söyləyən?
Qəbul edərmi görən
Ömrünü sərf eyləyən,
Oğlu üçün əridən
Öz oğlumun anası,
Desə ona balası?
Ana balaya qurban!
Ata balaya qurban!
Görən harda kəsilib,
Bala anaya qurban?!
Bala sanki, ürəkdir,
Ananın sinəsində.
«-Qurban olum balama!»
Deyir hər kəlməsində.
Analar qurban olar
Sevimli balasına.
Atayam, mən qurbanam,
Gözümün qarasına!

YAZA AZ QALIR

Güclü bir yağış yağır,
Ucundan tut, göyə çıx
Gedə bilsən beş addım
Bu yağışda çölə çıx!
Göydə qara buludlar,
Bir-birini qovurlar,
Sanki cəngə girirlər –
Buludlar toqquşurlar.
Yağış daha güclənir
Sulu qara çevrilir
Yağışla yağan bu qar,
Yerə düşür, əriyir.
Bir dəqiqə dayanmır,
Yağış gecədən yağır
Bütün sular cəmlənir,
Çayla dənizə axır.
Dənizdəki balıqlar
Lil suya can atırlar
Çayla üzür yuxarı
Uzaqlara çatırlar
Yağış meşəni yuyur,
Çölü, çəməni yuyur
Asfalt yollar, meydanlar,
Həyət təmiz yuyulur.
Göydən bərəkət yağır
Yaz qışı yola salır
Bir azdan novruz gəlir,
Çal-çağıra az qalır!

KƏNDİM XOŞBƏXT OLACAQ

Başqa kəndə bənzəmir,
Bu kənd diqqət çəkəndir.
Səfalıdır, gözəldir,
Bizim Təngərüd kəndi!

Dəniz ilə üzbəüz
Dağ döşündə salınıb
Naringi dər, limon üz
Ağaclarda saralıb

Bulaqların suyu buz,
İçsən dişin donacaq
Bəlkə düşə yolunuz
Bizə də xoş olacaq

Burda çoxdur zəhmətkeş,
Çalışan, işləyənlər.
Elmi sevən, cəfakeş
Oxuyan, öyrənənlər

Bu kəndin adamları
Əyilməz, vüqarlıdır
Burda hər qarış torpaq
Bərəkətli, barlıdır

Bu kənd bir yadigardır
Ağsaqqal babalardan
Nə vaxtsa məskən salmış
O müdrik qocalardan

Təngərüd meşəsinin
Böyük şöhrəti vardı
Heyif ki, qaz kəsildi
Meşə xeyli qırıldı

Bərpa olunur meşə
Çəkiləcək su, kəndə
Mavi qaz da yanacaq
Gələcəkdir, o gün də!

Köçməyəcək cavanlar
Hamı kənddə qalacaq
Burda həyat, yaşayış
Daha varlı olacaq

Ağ günlərə çıxacaq,
Şübhə etmirəm, əlbət,
Azad Azərbaycanda
Kəndim yaşayar xoşbəxt!

ALLAHDAN QAÇMAQ OLMAZ

Bunu bilsin adamlar
Günah cəzasız qalmaz
Yaxşılıq etsin onlar
Allahdan qaçmaq olmaz!

Biri sərxoşluq etsin
Sonra namaza getsin
Axırda həccə yetsin
Günah cəzasız qalmaz
Allahdan qaçmaq olmaz!

Halal adam işləsin
Haramzadə dişləsin,
Madyan kimi kişnəsin?
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

Kimi öyrənsin savad
Kiminə verilsin ad.
Alim olsun bisavad?
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

Müəllim var dərs keçir.
Kimi başından edir
Vaxt ötürür, dərs keçir
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

Biçarələr saç yolur
Torpağından qovulur
Vətəndə qaçqın olur!
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

Haqsız bar-bar bağırır
Haqlı hirsdən ağarır
Haqqdan kömək çağırır
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

Namuslu qız evdədir
Sırtıq çoxdan ərdədir
Varlı, hallı yerdədir
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

Bilin Siz ey insanlar!
Borcu qaytarmayanlar.
Halallıq qanmayanlar
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

Bir gün geci, tezi var
Əyrinin də düzü var
Allahın haqq sözü var
Günah cəzasız qalmaz,
Allahdan qaçmaq olmaz!

TANIMADIM

Nə köpmüsən xəmir kimi
Sən şişmisən tanımadım
Sir-sifətin alabəzək
Dəyişmisən, tanımadım!

Arıq qızdın, qıvraq idin
Bər-bəzəkdən iraq idin
Gülərüzdün, oynaq idin
Dəyişmisən, tanımadım!

Qaşlar kaman, çəkdirmisən
Kipriklər ox, əkdirmisən
Şalvarın dar, tikdirmisən
Dəyişmisən, tanımadım!

Yerişin də dəyişibdir
Ləngərlidir, keyişibdir
Ay qız, bu fil yerişidir
Dəyişmisən, tanımadım!

Sırğaların işıq saçır
Daş-qaşların hey sayrışır
Baxmaq olmur, göz qamaşır
Dəyişmisən, tanımadım!

Boynun bənzəyir vitrinə
Qızıl satan maqazinə.
Zər çəkmisən üz-gözünə
Dəyişmisən, tanımadım!

Bir küçənin tinindəsən
Bircə mayka əynindəsən
Qara çanta çiynindəsən
Dəyişmisən, tanımadım!

Rəfiqənlə gülüşürsən
Nə üçünsə irişirsən
Ötənlərə girişirsən
Dəyişmisən, tanımadım!

ƏSİRLİKDƏN QAÇAQ!

Dünya mənə qəfəsdir
Düşüncəmsə bir əsir.
Candan çıxmaq istəyir
Ruhum da çox tələsir

İkimiz də əsirik
Çıxmağa tələsirik
Mən öz Yer mədfənimdəm
Ruhsa mənim tənimdən.

Gəl, biz növbəyə salaq
Növbəylə azad olaq
Əvvəl qoy ruhum qaçsın
O, mənə də yol açsın.

Qəfəsləri ataq biz
Yerlə candan qaçaq biz
Uzaq sonsuzluqlara
Azadlığa çataq biz!

İKİ KÖRPƏ

Çağırıb anasını
Ördəyin balasını
Dedi ki, tut ver mənə
Ən kiçik, alasını

Ana öz balasını,
Öz ürək parasını,
Dilə tutmaq istədi
«Gözünün qarasını»
Dedi, mənim gül balam
Əziz balam, bal balam
Öldürərsən körpədir
Qucağıma gəl, balam!
Uşaq sakitləşmədi
Dillə yola gəlmədi,
Ana körpə ördəyi
Tutdu verdi, dinmədi
Aşur, ərköyün körpə
Götürdü öpə-öpə
Ördəyin balasını,
Ən kiçik, alasını
Getdi tez girdi evə.
Evdən bir səs çıxmadı
O, daha qışqırmadı.
Getdi, gördü anası
Küncdə durmuş balası
Onun ciyər parası
Gözlərinin qarası
Hönkür, hönkür ağlayır!
Ölmüş ördək balası!

TƏNHA PALID AĞACI

Tənha palıd ağacı
Bir həyətin böyründə
Neçə illərdi görən
Durur həyat seyrində

Yaxınlıqdan keçənlər
Ağaca baş əyirlər
Ağaca sap bağlayıb,
Dad, imdad diləyirlər

Nə vaxtsa ətrafında
Qəbirlər qoyulmuşdur
Çoxusun zaman silmiş
Yerlə yeksan olmuşdur.

Palıd ağacı mənim
Diqqətimi cəlb edir,
Küləyə, qara, palıd
Dayanıb sinə gərir.

Ağac necə vüqarlı,
Necə möhkəm dayanıb.
Ağac bütöv dağ kimi –
Hər tərəfi qar alıb

Altında qar lap azdır

Quşlar eşələnirlər
Məndən heç çəkinmirlər
Yavaşca dənlənirlər.

Bu qocaman palıda
Dayanaraq baxıram
Ona həsəd çəkirəm
Sıxılır, darıxıram.

Gərək palıd olaydım,
Belə möhkəm duraydım.
Bir palıdın ömrünü
Yaşayaydım, duyaydım!

VƏTƏNİ SEVDİRƏN MUSİQİ

Habil çox gözəl çalır
Çalır, qəlbə yol salır
İnsan xəyala dalır
Ruh bədəndən ayrılır
Sanki, kaman ağlayır
Şəhidləri oxşayır
O, qisasa çağırır
İgid qanı qaynayır,
Gen yaddaşı oyanır
Babək gəlir, dayanır
Xəyal kimi canlanır
Yatanlar da ayılır
Özünü borclu sayır –
Axı, Vətən dardadır!
Düşmənə ölüm! deyir,
Hamı döyüşə gedir!

HƏZİN BİR XATİRƏDİR

Bir balaca yazar qız
Böyüyərək atasız
Həsrətlə şer yazmışdı
Ataya ağlamışdı
O, həm də babasını
Sevə-sevə anmışdı.
Oxuduqca şerini
Kədər götürdü məni...
Düşündükcə onu mən
Uşaqlığım xəyalən
Göz önündə canlandı
Xəyalımda canlanan
Dünyadan köçən zaman
Məni çox sevən babam
Demiş, vur məni bala!
Mən oynarkən çubuqla
Qucağında onunla...
Mənə çox-çox əzizdir
Qəlbimdə bu xatirə,

Unudulmaz bir izdir
Babam köçmüş, rəhmətdir
Onun yeri cənnətdir!

YAZ GƏLİR

Qurtarmayıb qış hələ
Az qalıbdır yaz gələ
Gavalıda çiçəklər
Açmış ağca ləçəklər...
Hava yenə tutuldu
Hər yer qaranlıq oldu
Yəqin yağış yağacaq,
Şırhaşırla axacaq.
Arxlar aşıb-daşacaq
Torpağa su hopacaq.
Yuyulacaq çəmənlər
Ağaclarda çiçəklər
Yarpaqlar təmizlənər
Quşlar uçub gizlənər.
Torpaqdan çıxar çölə
Soxulcanlar su ilə...
Allah eləsin bəlkə,
Bir azacıq qar tökə!
Qar altından bənövşə
Çıxa bizlə görüşə.
Qarda artır ilhamım
Xoş açılır sabahım
Məndə duyğu güclənir
Düşüncəm qüvvətlənir.
Qarda olur pak, təmiz
Saflaşırıq sanki, biz
Bir azdan novruz gəlir
Şənlik gəlir, saz gəlir
Vətənimə elimə
Gözəl fəsil, yaz gəlir!

ƏSGƏR NƏĞMƏSİ

Səngərlərə dolmuşuq
Biz dost, qardaş olmuşuq
Vətənin keşiyində
Ayıq-sayıq durmuşuq!

Biz Allaha can borclu
Vətənə can, qan borclu
Xilas etməyə onu
Biz hazır hər an, borclu!

Bizi aciz bilməsin,
Düşmən qoy sevinməsin.
Sinəsinə döyməsin
Gücüylə öyünməsin!

Gözünü ovacağıq,
Alnından vuracağıq
Onun yekə burnunu
Biz qana salacağıq!

Yal tökənlər qabına
Çatammaz imdadına
Təpik dəyər dalına
Aləm gülər halına

Bizdən çörək yeyənlər,
Bizə hücum edənlər,
Cəzasına çatacaq,
Xəyanətkar düşmənlər!

İt kimi qorxar, qaçar
Əvvəl-axır, çar-naçar
Öz murdar it damına
Azəreldən qovular!

Qorxmaz əsgərlərik biz
Ər oğlu ərlərik biz
Düşmənə and içmişik
Əmrə müntəzirik biz!

«8 MART» TƏBRİKİ

Qış qurtardı əridi qar
Çiçək açdı, gəldi bahar
Mart baharın əvvəlidir
Yeni ilin təməlidir.

Martda bizə Novruz gəlir
İl dəyişir, təzələnir
İlkin alça çiçəklənir
Ona sanki qar ələnir.

Boynu bükük bənövşələr,
Novruzgülü ləçəklənir
Meşə, yamac, köl dibləri
Bu güllərdən bəzəklənir.

Mart ayının səkkizində
Təbrik edir gül əlində
Hamı əziz qadınları
Ən xoş arzular dilində.

Gözəl güllər – sözlər ilə,
Çələng hörür – bəndlər ilə
Qadınları təbrik edir
Mən yazdığım bu şerlə.

Bu elə bir çələngdir ki,
Hördüyüm çələngin rəngi,

Heç bir zaman solmayacaq,
Daim ətirli olacaq!

BAYRAM ARZULARI

Novruz gəlir təbiət
Canlanaraq dirçəlir
Bu il qış ağır keçdi
İndi xalq nəfəs çəkir

Bir azdan bayram gəlir
Hər bir adam sevinir
Kimi təzə geyinir,
Kimi yuyur geyinir

Dünyada sağlıq olsun
Qəlblərə sevinc dolsun
Yoxsulun da evində
Toy olsun, şadlıq olsun!

Xalq qayıtsın evinə
Obasına, elinə
Sülh, azadlıq sözləri
Möhürlənsin dilinə!

Yaşasın firavan, şad
Yurdumuz olsun abad
Xalqım bəxtiyar olsun
Dünyada çıxartsın ad!

Sağ-salamat böyüsün,
Hər bir evdə körpələr
Müharibə etməsin,
Bir-birilə ölkələr

BAHAR GƏLƏR...

Sən bu dağda vüqara bax
Zirvəsini çən bürümüş
Üstündə bəyaz qara bax
Sanki ağ xalat bürünmüş

Bir azdan qar əriyəcək
Çayda sular aşar-daşar
Sel-sular axıb gələcək
Düzən, hər an yaşıllaşar

Balıqlar bayram edəcək
Lil sularla yollanarlar
Çayla yuxarı gedəcək
Şəlalələr tullanarlar

Yerdə hər şey yeniləşər
İnsanlarda ruh yüksələr

Sevən könüllər birləşər
Elimizə novruz gələr

BİR NEÇƏ SÖZ...

Sevmədən təbiəti
Qələm ələ almadım
Təsirlənib kimdənsə
Mən şerlər yazmadım

Yazdığım gördüklərim
Görmək istədiklərim
Düzə üstünlük verdim
Əyri sözü yazmadım

Zəhmətkeş insanları
İşgüzar olanları
Vəsf etdim cavanları
Tənbəl kəsdən yazmadım

Qeyd etdim haqqı, düzü
Barışıq salan sözü
Haqdır həqiqət özü
Nahaq cümlə yazmadım

Dünya yoxuş, enişdir
Məndə ürək genişdir
Yaşım qırxı keçmişdir
Nadan fikir yazmadım

Tutdum qələm əldə mən
Bülbül oldum güldə mən
Yazdım sadə dildə mən
Qəliz dildə yazmadım

Sevirəm uşaqları
O dəcəl qoçaqları
Təsvir etdim onları
Məlumatsız yazmadım

Hey boşaltdım hirsimi
Yazmaq ilə təmsili
Bəlkə oldu təsiri
Mən naümid yazmadım

Şeri qəzəli sevdim
Qəzəllə izhar etdim
Öz fikrimi bildirdim
Boş, bihudə yazmadım

Güldən-çiçəkdən yazdım
Xəyal, kerçəkdən yazdım
Hətta milçəkdən yazdım
Qanmaz üçün yazmadım

Təmiz sadə insanlar
Şerə bələd olanlar
Məni duyurlar onlar
Hərzə-hədyan yazmadım

Hər kəsin ürəyindən
Arzusu, diləyindən
Yazdım öz şerimdə mən
Tək özümdən yazmadım

Şer paltara bənzəyir
Sevən onu geyinir
Ruha yaraşıq verir
Yaraşıqsız yazmadım

Şerdə məna gizlənir
Mənim fikrim üzdədir
Şeri oxuyan sezir
Qat-qarışıq yazmadım

Mənim də öz sözüm var
Həmfikirim milyonlar
Şer sevilər, oxunar
Dar mənada yazmadım

Zər qədrin zərgər bilər
Söz saf-çürük edilər
Ürək sözdən bilinər
Küt, ürəksiz yazmadım

Mən Allaha eşqdən
İnsanlara sevgidən
Tanrı verən vergidən
Vətənsiz şer yazmadım

İlhamam ilham ilə
Şad yazdım, həm qəm ilə
Hər dərdə məlhəm ilə
Tanrısız söz yazmadım.

İLAHİDƏN QAR GƏLİR...

Hər tərəf ağ, qar yağır
Göydən dövlət, var yağır.
Qarda təmizlik, paklıq
Məni ilhamlandırır,
Bu gözəllik, bu saflıq
Həyata ruhlandırır.

İlahidən qar gəlir...

Zirvələrdə qar olur
Vətənçün əriyirəm

Çöl-çəməni içirir
Ot olub göyərirəm
Küləklə yellənirəm
Dağların ətəyində
Gah lalətək bitirəm
Çölündə, çəmənində
Mən gültək dərilirəm,
Bəzən gözəl bir qızın
Başına sərilirəm.
Qaratel bir oğlana
Yarından verilirəm.
Əkliltək qoyuluram
Bir şəhid məzarına
Qəlbini ağlayır ona...

İlahidən qar gəlir...

Qartal kimi səmadan
Bəlkə daha ucadan
Görür doğma yerləri
Seyr edirəm Vətəni
Həm dağılan evləri
Amansız düşmənləri
İstəyirəm didim mən,
Gözünü kor edim mən!..

İlahidən qar gəlir...

İstəyirəm qar olum
Qardan təmiz-tər olum
Yağım kin ürəklərə
Bir təmizlik gətirim
Arzuya, diləklərə.
Qarda olan saflığı
Sakin edim qəlblərə
Qarda olan ağlığı
Məlhəm edim üzlərə
İnsanlar paxıllığı
Qoy atsınlar bilmərrə...

İlahidən qar gəlir...

Qar yağır İlahidən,
Var yağır İlahidən!
Gəl bu qarda təmizlən
Nahaq həccə getmə sən
Həccə getdiyin pulu
Bir yazığa xərcləsən
Dərəcəyə yetərsən!
Böyük savab edərsən,
Bu qarda təmizlənsən!
Təmizdir o, təmizdən
Bu adicə qar deyil
Qarda olan təmizlik

Heç bir yerdə var deyil...

İlahidən qar gəlir...

Bədəndən danışmıram
Danışıram ruhdan mən,
Pak ruhun hamamından.
Sən ruhunu təmizlə!
Əqidəni təmizlə!
Ürəyini təmizlə!
İnan, sonra gec olar,
Çalış indi təmizlə.
İnamını təmizlə,
Məsləkini təmizlə
Sən bu qarda təmizlə
İdrakını təmizlə.
Sən bu qarı əzizlə.
Qar yağır İlahidən
Gəl bu qarla təmizlə!

İlahidən qar gəlir...

Bu qar İlahi qardır
Rəngi ağdan da ağdır
Təbiət qarda çimir
Səmalar ağlıq əmir
Səmalar təmizlənir
Təmizlik növbələnir –
Sonra yer təmizlənir,
Köhnə il təzələnir
Pak olur, Novruz gəlir
Çöl, çəmənlər göyərir
Qardan sonra dirçəlir...

İlahidən qar gəlir...

Dövlət gəlir, var gəlir
Mənim əziz elimə
Çiçəkli bahar gəlir
Hər bir evə baharda
Şadlıq və vüqar gəlir
İnsanlar fərəhlənir,
Gözəl, nazlı yar gəlir.
Sevənlər əzizlənir
Sevgilər təmizlənir!

Xeyir, dövlət, var gəlir,
İlahidən qar gəlir!..

QƏBRİN NURDUR

Görkəmli muğam ustası, mərhum Hacıbaba Hüseynova

Səndin muğamatın tacı,

Tacsız qaldı muğam, Hacı
Ağlayıram acı-acı
Tutammıram aram, Hacı!

Mail idin şux gözələ,
Muğam ilə sən qəzələ
Çətin sağala, düzələ,
Ürəyimdə yaram, Hacı!

Gözəl insan, sən xoş avaz
Ağasəlim sənə həmraz
Oxuyarkən «Şuri-şahnaz»
Heyran idi adam, Hacı.

Sərhədləri keçər, aşar
Dost ellərdə səsin yaşar
Hər bir evdə könül oxşar
Sən tutmusan məqam, Hacı!

Yaşlanmışdın, göyçək idin
Nazik ürək, kövrək idin
Sən hamıya gərək idin
Ürəyi xoş məram, Hacı!

Kədər dolu bir ah idi
Sənin səsin ilahiydi
Can yiyəsi Allah idi
O apardı müdam, Hacı!

Diləyirəm mən mərhəmət
Bir Allahdan sənə rəhmət
Yaşayacaq, ölməz sənət,
Qəbrin nurdur tamam, Hacı!

NİGARANLIQ

Varlanıb dünyada dövlətlə, zərlə
Özümə yük etmək istəmirəm mən
Baş-başa qoyaraq xeyiri şərlə
Dünyanı tərk etmək istəmirəm mən

Ölməyə hazıram hər dəqiqə mən
Kaş qurtaraydı çətindən Vətən
Görməmiş Vətəni azad, sevinəm
Həyatdan heç getmək istəmirəm mən

Mənim üzülməyim Yer sarıdandır
Nankorlar köksünü hey ağrıdandır
Yaşım da keçibdir, ömr yarıdandır
Nigaran köç etmək istəmirəm mən!...

DİLİNƏ QURBAN

Xəlq etmiş dünyanın gülün, çiçəyin

Tanrının hər gözəl gülünə qurban
Jaləsi üstündə güldə ləçəyin
Günəşin bərq vuran telinə qurban!

Şümşadboy, qaratel, gülcamallının
Vurğunu olduğu üzü xallının
Bir busə ver! deyən dili ballının
İncə belindəki əlinə qurban!

Vətənə mən qurban eylərəm tənim,
Olmasın heç zaman darda Vətənim
Vətənim şimallı, cənublu mənim
Xalqımın hər iki elinə qurban!

Həm sənin, həm mənim nitqimdə dilin
Saflığın qoruyaq dilin biz gəlin
Dünyada üstünü yoxdur bu dilin
Xalqımın bu gözəl dilinə qurban!

AQİL OLAN BİLİR

Dünyanın istisindən
Gözüm elə qorxub ki,
Soyuğun füləyirəm
Yandıracaqdır sanki!

Dünyanın hər üzünü
Əyrisini, düzünü
Gördüm, əllə götürdüm
Soyumamış gözünü

Cavanlıq bir çapartək
Sürətli bir qatartək
Bilmədim necə keçdi
Mən həyatı dərk etcək!

Heç vaxt həsəd çəkmədim
Kimsənin dövlətinə
Dünyanı dərk etməyim
Özüdür dövlət mənə

İnsan yaşa dolduqca
Daha yüksəyə qalxır
Baxır fani dünyaya
Qəlbini bir qəm sıxır.

Qəlbini bir qəm sıxır,
Aqil olan darıxır.
Bilir, keçən hər bir gün,
- Ömür, əriyir, axır!

DAĞ OLAN DAĞLAR
-Mənsur-

Dağın dağ boyda dərdi var
Dərdən böyüyüb dağlaşmış dağlar.
Yer dağlar ilə sipər çəkib,
Qorunur soyuqdan, şaxtadan qardan,
Amma Yer...
Qoruna bilmir insanlardan!
Səngər, qalalı dağlar.
Soyuğa, şaxtaya dözən dağlar.
Yerin köksünə dəyən dağlara
Dözə bilməyən,
Dağ olan
Dağlar!

MÖHKƏM DUR, ƏSGƏR BALA!

Şaxtalı, soyuqdur, durduğum səngər,
Üşüyən canına, əlinə qurban!
Bığ yeri yenicə tərləyən əsgər,
Qapqara kəklinə, telinə qurban

Durmusan keşikdə ayıq-sayıq sən,
Yatmayır gecələr, qalır oyaq, sən
Ananı, Vətəni, bala, sevirsən
Qəhrəman yetirən elinə qurban!

Vətəni əmanət etmiş el sənə
Mərdliklə gərirsən düşmənə sinə
Həddini göstərrik yağı düşmənə! –
Söz verib, and içən dilinə qurban!

Gözləyir yolunu bir üzü xallı
Könlünü verdiyin o gül camallı
Ah çəkir, darıxır, sənsiz qalalı,
Sevdiyin o qızın xalına qurban!

İnşallah dönərsən qalib evinə
Ürəkdən sevdiyin doğma elinə
Gül verər sevgilin sənin əlinə
Yarının verdiyi gülünə qurban!

ƏSGƏRİM, ASLANIM!

Əmrinə müntəzir tüfəngdə tətik
Qadasın aldığım aslanım, şirim
Düşməni alnından nişan al dəqiq
Gözünə döndüyüm, ey qoç əsgərim!

Aslanlar elində tülkülər gəzir
Üz-gözü abırsız, tüklülər gəzir
Qulağı kəsilmiş görklülər gəzir
Qurbanı olduğum cavanım, ərim!

İşiniz vəhşini tutmaq kəməndsiz
Öyrənmiş döyüşdə hər cürə fənd siz
Bilirəm nərsiniz, bir himə bəndsiz
Canımdan şirinim, balım, şəkərim!

Nəğməsi əsgərin sərt, ötkəm olsun
Qolları poladtək qoy möhkəm olsun
Arxada köməyi xalq, ölkəm olsun
Düşmənə silahdan od saç, əsgərim!

Keşikdə durubdur min bir ərənim
Çətinə düşübdür, dara Vətənim
Ziyamdır, İlyamdır, Mirzəmdir mənim
Tarixi sınaqdan mərd keç, əsgərim!

MƏN VƏ SƏN

Mən də, sən də, biz deməsək
Kim deyəcək, yeridəcək,
Həqiqəti?
Mən də, sən də, biz etməsək
Kim edəcək, söylə, bərpa
Ədaləti?
Mən də, sən də, əgər birgə
Göstərməsək, kim göstərər
Səxavəti?
Söndürməsək mən də, sən də,
Kim söndürər, söylə görüm,
Ədavəti?
Mən də, sən də, biz salmasaq
Əgər birgə, kim salacaq
Mehr-ülfəti?
Mən də, sən də, biz sevməsək
Kim göstərər Vətəninə
Məhəbbəti?
Mən də, sən də, dost olmasaq
Tanrı bizə göstərərmi
Kəraməti?
Mən də, sən də, işləməsək
Kim ləğv edər yoxsulluğu,
Səfaləti?
Mən də, sən də, oxumasaq,
Öyrənməsək, kim yox edər
Cəhaləti?
Mən də, sən də, qorumasaq,
Kim qoruyar, qız-qadında
Lətafəti?
Mən də, sən də, çalışmasaq
Kim gətirər ölkəmizə
Şan-şöhrəti?
Mən də, sən də, biz etməsək
Rəhbərə, kim edəcək
İtaəti?

Mən də, sən də, biz verməsək,
Kim verəcək həqiqətə
Bəraəti?
Mən də, sən də, bir yazığı
Dinləməsək, kim eşidər
Şikayəti?
Mən də, sən də, biz etməsək
Cəza verər, kim pisləyər
Cinayəti
Mən də, sən də, intizamlı
Deyiliksə, kim qoruyar
Əmniyyəti?
Mən də, sən də, biz qovmasaq
Düşmənləri, kim göstərər
Şücaəti?
Mən də, sən də, şer, sənətdə
Yaşatmasaq, kim yaşadar
Ülviyyəti?
Kim yaşadar şeriyyəti?
Öz xalqını, bu milləti?
Kim edəcək ibadəti?
Arzulayar səadəti?
Kim edəcək?!.Kim edəcək?!

SONA YETƏR ÖMÜR PAYI...

Vətənimin hər obası, hər bir eli
Zaman-zaman xatırlayar anar məni
Şerlərimi bir mələyin incə əli
Təəssüflə varaqlayar, arar məni!

Çəkər məni keçənlərə düşüncələr
Həyat keçdi, hər şey acı, gülünc gələr
Baş ağarar, fikir çaşar, qəlb incələr
Əlim əsər, bir üşütmə sarar məni!

Haqq ədalət axtarışı çatmaz başa
Ox ataram, atdığım ox dəyər daşa
Vətən oğlu, sev Vətəni, aqil yaşa
Fikir-xəyal eyləyər biqərar məni

Sona yetər hər insanın ömür payı
Dəqiqəsi, saatı da hər bir ayı
Bu dünyanın eniş-yoxuş, hay-harayı
Bel bükülər yaşamaq da yorar məni!

Boynubükük bənövşələr çıxan zaman
Oğrun oğrun kol dibindən baxan zaman
Sellər-sular köpüklənib axan zaman
Mən olmaram, çöl-çəmənlər sorar məni!

ALLAH KƏRİMDİR!

Hörmətli insan, sevilən şair Şiriyev Seyran müəllimə xitabən.

Yox axtaran, məni salan bir yada
Tək-tənhayam, öz-özümlə dünyada.
Düşmə könül, ahu-zara, fəryada
Çərxi-fələk bir gün gərdiş edəcək
Haqq-ədalət öz sözünü deyəcək!

Möhkəm saxla başı çiyinlər üstə
Nə istərsən bir tək Tanrıdan istə
Olsan da qüssədə, qulağı səsdə
Yaxşı, pisi fələk çıxdaş edəcək,
Haqq-ədalət öz sözünü deyəcək!

Bu dünyanın hər üzünü görmüşəm
Öz ömrümə günlərimi hörmüşəm
Zəhmət ilə çətin həyat sürmüşəm
Səadəti mənə yoldaş edəcək,
Haqq-ədalət öz sözünü deyəcək!

Tək deyiləm dünyada zülm görən mən
Zəhmət çəkən, bəxti bəd gətirən mən
Gül balalar – beş övlad itirən mən
Bir gün gələr xaini faş edəcək
Haqq-ədalət öz sözünü deyəcək!

Şair Seyran möhkəm dayan, karıxma
Kədər sıxsa ürəyini, darıxma!
Tanrı haqdır, ətəyini buraxma
Səxavəti Allah yavaş edəcək,
Haqq-ədalət öz sözünü deyəcək!

Allah bizi tuş eyləsin mərdlərə
Bundan belə heç salmasın dərdlərə
Dünya qalan deyil də namərdlərə
İnşallah mərdləri baş edəcək
Haqq-ədalət öz sözünü deyəcək!

QURAN OXUNURDU...

Oxundu radiomda müqəddəs Quran
Pəncərəm önündə şer yazan zaman
Hardansa bir bülbül tapıldı bu an
Səs verdi bu səsə aşiqi-nalan
Oxundu, sonra da verildi azan
Bülbül də oxudu susmadı bir an!
Evimə lap yaxın olsa da meşə
Doğrusu çox təəccüb etdim bu işə
Bir aydır bülbülü eşitmirdim mən
Xoş avaza bu quşu yad etmirdim mən
Eşitcək radiodan Quran səsini
Bülbül də başlamış öz nəğməsini
Kəramət, hikmətə bax ki, Quranda

Bülbül də səs verdi oxunan anda
Yarımçıq qoyaraq mən öz şerimi
Cəmləyə bilmədim daha, fikrimi...

ÇİÇƏK SUVARIRAM...

Fikir səhrasını arayıram mən
Bu sonsuz səhrada gül tapıram mən.

Səhrada gül tapmaq çətin olsada
Tapdığım güllərə mat qalıram mən.

Gözəldir çiçəklər, tənha səhrada
Səhra çiçəyindən zövq alıram mən.

Bağbanı güllərin özcə fikrimdir
Fikrimin gülündən ruhlanıram mən

Bir kiçik bağbanam, fikir bağçamda
İlhamla gül-çiçək suvarıram mən!

XƏYALƏN SƏHRADA...

Xəyalən səhrada var oluram mən
Ah, niyə səhraya vuruluram mən?

Məcnunu dərk edib anlamaq üçün
Səhrada gəşt edir, qovruluram mən.

Bəlkə də nə vaxtsa Məcnun ömrünü
Yaşamış-sevgidən yoruluram mən?

Ürəkdən sevirəm istəkli yarı
Kim deyər, yarıma xar oluram mən?

Bu sevgi qəlbimi ilhamlandırır
Məcnundan dərs alıb yar oluram mən!

****

Mən Vətəni mədh eləmək istəyirəm qəzəl ilə
Şəninə söz, nəğmə demək istəyirəm qəzəl ilə

Taleyimdən razıyam ki, Vətənimdir Azərbaycan
Çox sevirəm muğamatı, fəxr edirəm qəzəl ilə

Bura dahilər Vətəni, şairlərin məskənidir
Bu sözləri həm nəzm ilə, söyləyirəm qəzəl ilə

Nizami də, Füzuli də, Seyid Əzim, şah İsmayıl
Vahid yazdı, gözəl yazdı, mədh edirəm qəzəl ilə

İlham, onlar ad qazandı, bu dünyadan köç etdilər
Allahdan onlara rəhmət, diləyirəm qəzəl ilə

DÜNYA FANİ, DEYƏRSİZ...

Payızdır, köçürsüz dəstəbəstə
Göy üzündə, süzə-süzə durnalar
Əlimi tutaraq gözlərim üstə
Həsədlə baxıram sizə, durnalar!

Qaqqıltı salaraq keçirsiniz siz
Şimali tərk edib gedirsiniz siz
Məni də yəqin ki, seyr edirsiniz
Cərgəniz gəlməsin gözə, durnalar!

Sizə baxdım azadlığı andım mən
Xəyal etdim, özümü quş sandım mən
Yerdə gəzmək sanki zindan, qandım mən
Aramım yox, heç bir sözə, durnalar!

Sizə baxdım papaq düşdü başımdan
Qırx altı il ötür keçir yaşımdan
Saç ağarır, bəllidir baş, qaşımdan
Nə faydası, döysəm dizə, durnalar?!

Uzaq eldə məndən nağıl edərsiz
Biz gözələ salamımı söylərsiz
Şair İlham köç edəcək, deyərsiz
Dünya fani, çəksə yüzə, durnalar!

****

SEVGİ ŞERLƏRİ, QƏZƏLLƏR VƏ BAYATILAR

****

ACIQ VERDİM KÜLƏYƏ

Küləkli bir havadır
Külək tufan qoparır.
Yarımı gözləyirəm
Məni fikir aparır
-Yarım gələ bilərmi,
Bu küləkli havada?
Külək aman verərmi,
O vəfadar olsa da?!
...Uzaqdan yarım gəlir
Küləyə sinə gərir
Yarımla zalım külək
Sanki, döyüşə girir
-O mənim sevgilimdir,
Burax gəlsin ay külək!
Belə gözəl bir qızı
İncitmə sən, ey külək!
Yarımın üz-gözündən
Külək öpdü, yaladı,
Daha da bərkdən əsdi
Vıyıldadı, uladı.

Yarım gültək qızardı
Külək coşdu bozardı
Mən atıldım köməyə
Güc yetirdim küləyə,
Yarımı qucaqladım
Acıq verdim küləyə!

HAMI SƏNDƏN DANIŞIR!

Sarışın bir qızdın sən
Balaca, naz-nazdın sən
Nə tez pərvazlandın sən?
Yaman gözəlləşibsən,
Hamı səndən danışır!

Deyirlər ki, göyçəksən
Gözəlsən, gül-çiçəksən
Göydən enmiş mələksən
Yaman gözəlləşibsən,
Hamı səndən danışır!

Səni görən alışır
Bilmir ki, nə danışır
Ayaqları dolaşır
Yaman gözəlləşibsən,
Hamı səndən danışır!

Ətrafımda dolaşır
Bir çoxları savaşır
Sənə görə dalaşır
Yaman gözəlləşibsən,
Hamı səndən danışır!

Gözlərini süzürsən
Hər baxanı üzürsən
Mənə dodaq büzürsən
Yaman gözəlləşibsən,
Hamı səndən danışır!

İlham həsrətlə baxır
Gözlərində od çaxır
Səni görür darıxır
Yaman gözəlləşibsən,
Hamı səndən danışır!

RƏVANƏ

Mavi gözlü, gülər üzlü
Gülün qönçəsi Rəvanə.
Şux qamətli, şirin sözlü
Balın beçəsi, Rəvanə!

Ay mənim gülüm Rəvanə
Saçı sünbülüm, Rəvanə

Salmısan məni bəlaya
Nazlı bülbülüm Rəvanə.

Gözəl yaradıb yaradan
Səni dilərəm Tanrıdan
Ləblərin şəkər, ya baldır
Mən bunu bilim haradan?!

Səni istəyən, sevən mən
Nəğmə söyləyən, deyən mən
Eşqindən dəli, divanə
Öz ürəyini yeyən, mən

Gözünə eynək taxma sən,
Belə naz ilə baxma sən
Sənə, sevirəm! deyəndə
İldırım olub çaxma sən!

Rəvanə, mənim mələyim
Necə yaşayım, neyləyim.
Əlimi üzə bilmirəm
Özümə qəsdmi eyləyim?

Göylərdən ulduz dərim mən
Saçına bir-bir hörüm mən
İstəyirsən al canımı
Yolunda qurban verim mən!

AĞLAYIR YAVAŞ-YAVAŞ...

Sən gözəlsən, bir gülsən
Qızılgül kollarında
Mən yöndəmsiz bir tikan
Durmuşam yollarında
Sən qayğısız yaşayır,
Həyatdan zövq alaraq
Mənsə saralmış yarpaq
Sənə həsrət qalaraq!
Sən bir şamsan, yanırsan
Ətrafa nur saçırsan.
Mən vurulmuş pərvanə
Dolanıram başına.
Sən sevgidən bixəbər,
Mənə salmırsan nəzər.
Mən dəli, divanəyəm
Eşqində Məcnun qədər,
Tərəzidə sənsən zər
Tərəzinin daşı mən
Sənin qiymətin baha
Ucuz üzük qaşı mən
Sən qızıldan bir tacsan
Şah başına qoyulan
Mənimsə heç nəyim yox –
Sevgiyə möhtac olan.

Sən bir cənnət meyvəsi
Cəzb eyləyən hər kəsi
Mən cənnətdən qovulmuş
Hər şeydən məhrum olmuş
Sən dünyada kədərsiz
Sevgi nədir? xəbərsiz
İlham gözlərində yaş
Ağlayır səssiz, yavaş!

QOY ÖPÜM YANAĞINDAN

Lalə, nərgiz, yasəmən
Bu gülləri sevirəm
Sevdiyim gülləri mən
Sənə bəxşiş edirəm.

Baxçanı gəzmişəm mən
Güllərdən dərmişəm mən
Dərdiyim güllərin sən
Gözəli, bircəsisən!

Ən gözəl gül, qızılgül,
Nəğməkarıdır bülbül
Sən də mənim gülümsən
Sənə vurulmuş könül

Kəndimin gözəl qızı
Yanaqları qırmızı
Qoy öpüm yanağından
Qoyma qalım tamrazı.

BİLƏ BİLMƏDİM

Özgə ilə yar oldun
Sən məni ucuz tutdun
Hələ də anlamıram
Məni necə unutdun?!

Sənin xəyalın hər vaxt
Məni təqib edirdi
İndi də anlamıram
Həyat necə keçirdi

Səni məndən çox sevən
Ürəyində yer verən
Başa düşə bilmirəm
Bir kəs vardımı görən?!

Mənə, sevirəm! dedin
Amma könül vermədin
Səni sevəən bir kəsi
Axı niyə, sevmədin?

İz qoydun qəlbimdə sən

Hələ də dilimdəsən
Məktubların şəklinlə,
Qalıbdır, əlimdəsən!

Çoxdan keçib o günlər
Səngiyibdir məhəbbət
Amma bilə bilmədim
Tapdınmı sən səadət?!

SƏNİ AXTARIRAM...

Eldən-elə gəzərək
Gül-çiçəklər üzərək
Yollarına düzərək
Mən səni axtarıram

Saf eşqinlə yanıram
Yar, sənə inanıram
Əhdə sadiq sanıram
Mən səni axtarıram

Hamı məni qınayır
Atam daim danlayır
Tale bizi sınayır
Mən səni axtarıram

Həyatımda yanan şam
Alıram səndən ilham
Qoyma saralam, solam,
Gəl, səni axtarıram

İlham yarın möhtacı
Sənsən başının tacı
Ağlaram acı-acı
Mən səni axtarıram!
Yar, səni axtarıram!

QƏLBİN DUYĞUSUZ İMİŞ

Məni bir sönmüş köz idim
Səni gördüm, odlandım
Başına pərvanə tək
Hey fırlandım, dolandım
Od olan da mən oldum
Pərvanə olan da mən
Öz-özümü yandırdım,
Görmədinmi bunu sən?!
Səni hər görəndə mən
Əriyirdim şam kimi
Sən məni yandırırdın
Oddan alışan kimi
Mən tək səni eşidir,
Təkcə səni görürdüm.
Gecələr səhərədək

Yata bilmir, ölürdüm!
Səni hətta xəyalən
Öpməyə utanırdım
Başqaları bir yana
Özümə qısqanırdım.
Səni gülüm, dünyada
Mən ideal sanırdım
Axı hardan biləydim
Sevgidə aldanırdım?!
Səndə nə günah, gülüm
Qəlbin duyğusuz imiş,
Sənə olan sevgilər
Əbəs, mənasız şeymiş!

İLHAMI SEVSƏN DƏ

Bilirəm çoxdan peşman olmusan
Sən biçarə, halı yaman olmusan
Hamı bilir, əhdə yalan olmusan
Səni sevdiyimi guya bilmədin!

Məcnuntək aşiqin olunca sənin
Kölgəndim, sürünür dalınca sənin
Hər dəfə sorağın alınca sənin
Salmadın dərdimi saya, bilmədin!

Bədəndim, sinəmdə sən könül idin
Nazlı yar, xoş səda bir bülbül idin
Bəlkə də mən bülbül, sən bir gül idin
Nəğməmin mənasın duya bilmədin!

Nə üçün bəs məni ümidvar etdin?
Sevgisiz bir kəsə sən ərə getdin
Özünü aldatdın, guya ki, sevdin
Sən məni daş bildin, qaya bilmədin!

İndisə o günlər ötüb, keçibdir,
Xəyalın səngiyib, surət itibdir
İlhamın sevgisi daha bitibdir
Günahın çox oldu, yuya bilmədin!

SƏN NECƏ TOXUNARAM?!

Aydan ağsan incəsən sən
Ya zərsən, ya incisən sən
Məhəbbətim, sevincimsən
Səni sevirəm, sevirəm,
Sənsiz ölürəm, ölürəm!

Saç sarışın, ala gözlü
Bədən tökmə, mərmər üzlü
Baxma belə sözlü-sözlü,
Səni sevirəm, sevirəm,
Sənsiz ölürəm, ölürəm!

Baxışından ağlım çaşır
Baş gicəlir, dil dolaşır
Sənə sevgim aşır-daşır
Səni sevirəm, sevirəm,
Sənsiz ölürəm, ölürəm!

Aman Allah, dözmək olmur
Göz qaralır, görmək olmur
Mələksənmi, bilmək olmur
Səni sevirəm, sevirəm,
Sənsiz ölürəm, ölürəm!

Ağappaqdır, bəyaz qardır,
Belə gözəl harda vardır?!
Şükr edirəm mənə yardır
Səni sevirəm, sevirəm,
Sənsiz ölürəm, ölürəm!

Gözüm ki, səni görübdür
Dərdin məni öldürübdür
Qorxu məni götürübdür
Səni sevirəm, sevirəm,
Sənsiz ölürəm, ölürəm!

Qorxum odur, alsam səni
Necə öpər İlham səni?
Vüsal vaxtı, axşam səni
Səni sevirəm, sevirəm,
Sənsiz ölürəm, ölürəm!

ÜRƏYİM TUTUB SƏNİ!

Sənin gözün qaradır
Yanağın ayparadır
Allah səntək gözəli
Görən necə yaradır?!

Saçların dalğalanır
Topuğuna sallanır
Gecələr ilan kimi
Belinəmi dolanır?!

Qaşların lap kamandır,
Kipriyinlə amandır
Ürəyimi oxlama
Ürəyim dolu qandır

Bəyaz sənin əlindir
Şəkər sənin dilindir
İzin ver qucaqlayım
İncə sənin belindir

Əllərim belindədir

Dodağım telindədir
Həyacanlı vücudum
Bir günah meylindədir

Görürəm yumşalırsan
Əllərimdə axırsan
Niyə ürkək ceyran tək
Mənə belə baxırsan?

Səni çox tərifləröm
Mədhiyələr söylərəm
Bir gün səni görməsəm
Ahü-fəqan eylərəm!

Gülüm, səni sevirəm
Daha bəsdir! deyirəm
Ürəyim tutub səni
Səninlə evlənirəm!

QƏLƏMİ YERƏ QOYDU

O kəs ki, aşiq oldu
Eşqindən şair oldu
Hər mövzusu eşq oldu
Qəzəl old, şer oldu.

Sevgisini bildirdi
Xəstə idi, bilirdi
Sevgi, məhəbbət ilə
Nəfəs gedib, gəlirdi

Onu saya salmadı
Yardan cavab olmadı
Tamam taqətdən düşdü
Gözündə nur qalmadı

Yavaş-yavaş soyudu
Sevgidən cana doydu
İlham onu tərk etdi
Qələmi yerə qoydu

RUHSUZ BƏDƏN MƏHV OLAR

Küləklərdən soruşdum,
Gördüm, deyən olmadı
Buludlarsa halıma
Yağış tökdü, ağladı

Səndən xəbər olmadı,
Səbrü-qərar qalmadı,
Abi-leysan ağladı
Gözümdə nur qalmadı

Bədəndə ruh kimisən

Bu canı tərk etmisən
Neçə aydır getmisən
Könül aram olmadı

Üzün bu yana döndər
Küləklə xəbər göndər
Ay da sənsiz gecələr
Tutuldu, açılmadı

Gözəl mələk, nazlı yar
Mənimlə əhdü-ilqar
Bağlamışdı o nigar
Niyə çarə qılmadı?

Gəlməsən tələf olar
Ruhsuz bədən məhv olar
Gültək saralar, solar
Könlüm qubar bağladı!

MƏNİM GÜLÜM, BƏNÖVŞƏ!

Boynu bükük bənövşə
Ətirlisən həmişə
Yəqin darıxar meşə
Sən olmasan, bənövşə!

Boynun niyə bükmüsən?
Qaş-qabağın tökmüsən.
Bəlkə xətrinə dəyib,
Sevgilindən küsmüsən?!

Qar altından çıxırsan
Ürkək-ürkək baxırsan
Bu il bahar gecikir,
Olmaya darıxırsan?

...Eybi yoxdur, dinmə sən
Məni heç dindirmə sən!
Mən də səni dərmərəm
İncisən, inciməsən...

...Amma könlüm dözərmi?
Başqa bir gül bəzərmi,
Sevgilimin yaxasın,
Bənövşəsiz gəzərmi?

Mənim ürkək gülümsən
Sevimlisən, gülüm, sən
İncə, boynu büküksən
İsmətlisən gülüm, sən!

ÖMRÜN MƏNASIZ KEÇDİ

Şer yazmaq istəyəndə

Fikrimdə canlanırsan
Uzaq xatirələrdən
Qanrılıb, boylanırsan.

Məni bir dəli sanır,
Sən yanıma gəlmirdin
Sən sevgi dadmamışdın
Ləzzətini bilmirdin

Sevgi bir xəstəlik ki,
Çoxu ona tutulur.
Elə nəşə verir ki,
Ömürlük unudulmur!

Olmaz hər kəsə qismət
Eşqin xəstəsi olmaq.
Eşq xəstəsi istəməz
Xəstəlikdən qurtulmaaq!

Sən sağlam bir qız idin
Hər şeyə laqeyd idin
Məhəbbətin Allahdan
Gəldiyin nə biləydin?!

Ömr ötdü, zaman keçdi
Duyğusuz, nadan keçdi
Sevgisizdin, həyatın
Bilmədin haçan keçdi!

Verdin bada, bilmədin
Eşqi dada bilmədin,
Səni xoşbəxt edəcək
Bir adamı sevmədin

İndi yaşa dolmusan
Ətli-canlı, dolusan
Həyatda vacib olan
Eşqdən məhrum olmusan!

BU SEVGİ ÜZÜR MƏNİ

Yenə sızlayır yaram
Sənsiz dözə bilmirəm
Tuta bilmirəm aram,
Rahat gəzə bilmirəm.

Özümdən xəbərsizəm
Sərxoş kimi gəzirəm
O gün ki, mən sənsizəm
Yolunda müntəzirəm

Ürəyin mənə yanmır
Həsrətin üzür məni.
Məni görən tanımır

Ah çəkir, süzür məni

Deyə bilmir özünə
Sevgimi gizlədirəm
Bu sevgiylə özümə
İnan ki, zülm edirəm

Göydən enmiş nagahan
Bu sevgidə kələksən
Tanrı edir imtahan
Mən insan – sən mələksən!

Nəyə lazım kələklər
İnsan –mələk, düz gəlməz!
Göydən enmiş mələklər
İnsana könül verməz!

Mən eşqində tək, tənha
Sənə bir pərvanəyəm
Yəqin etdim bir daha –
Dərdindən divanəyəm!

BƏNÖVŞƏNİ DƏRMƏDİM

Əfsanə

Bənövşəylə meşədə
Dayanmışdıq yenə də
O boynun bükmüş durmuş,
Mənsə ona vurulmuş...
Yerə qədər əyildim,
Mən bu gülü iylədim
Bənövşəni dərmədim
Yarıma göndərmədim...
Dedim, gülüm, səbəb nə,
Soyuq dəyməzmi sənə?
Belə erkən çıxmısan
Qar altından çölə sən?
Demə dərdi ağırmış,
Öz yarından ayrılmış
Bahar adlı bir oğlan
Ona vurulmuş yaman
Üzündən, isti Yaydan
Bahar sevimli yardan
Məcburən uzaqlaşmış
Qəriblikdə olurmuş
İndi keçir bir ildir
Bahar görüşə gəlir
Öz yarını görməyə,
Ürəyini verməyə.
Beləcə illər ötür...
Yarını hər il görür
Boynubükük bənövşə,
Buna şahiddir meşə.
Ayrılırlar sevənlər

İsti Yayın əlindən
Görüşürlər yenidən,
Əhdü-peyman edənlər!

MƏN SEVİRƏM BİR TƏK SƏNİ...

Dodaq büzmə, dal çevirmə, hirsli-hirsli baxma mənə
Sən hirsini ildırım tək alov edib, çaxma mənə!

Bilmirəm ki, nə deyirlər, məni günahkar edirlər
Günahımı başıma çax, nahaq böhtan yaxma mənə!

Səndə bu nə xasiyyətdir, bu nə hiylə, nə hikkədir?
Mənim sevgim saf sevgidir, başqa bir ad taxma mənə!

Saxta sevgi xoşbəxt etməz, riyakarlıq edənləri
Mən sevirəm bir tək səni, başqa afət yapma mənə!

Pulsuz, yoxsul olsam da bil, mənim sevgim tükənməzdir
Dünya malı eşq artırmaz, yoxsulluğu qaxma mənə!

Bu dünyada saf sevgiylə yaşamağı İlham istər
Məni sevsin mənim yarım, bəs eyləyər daxma mənə!

ÖTDÜ İLLƏR...

Ötdü illər, dövr dolandı
Aşiq cavan qalammadı
Saç ağardı, can qocaldı
Taqət inan, qalammadı

Üzün aydı, sinən mərmər
Heyran olurdu görənlər
Keçdi heyhat, getdi günlər
Oldu yalan, qalammadı

Əl üzdülər hər sevdadan
Köç etdilər bu dünyadan
Ayılmamış heç röyadan
Bir eşq qanan qalammadı

Ömür şimşək, çaxdı keçdi
Kiçik çeşmə, axdı keçdi
İlham tezcə baxdı keçdi
Sevdi canan, alammadı!

GƏL İNSAFA!

Gözəllik də bir vergidir
Bəzən ondan gəlir cəfa
Nəşə verən eşq, sevgidir
Heç də hamı görməz səfa

Vardı on beş yaşım mənim

Ağrımazdı başım mənim
Eşqinlə artdı atəşim
Anlamadın, ay bivəfa!

Eşqim dildən-dilə düşdü
Aylar keçdi ilə düşdü
Ahü-zarım zilə düşdü
Mən görmədim səndən vəfa

Cəzb eyləyən gözlər idi
Məhəbbətə təhrik etdi
Sevgi gəldi ağıl itdi
İşləmədi beyin, qafa!

Çox gözəlsən, sevinirsən
Sən bir mələk – bilinirsən
Aşiqin çox, sevinirsən
Sən səbəbsən ixtilafa

Görən kimə yar olarsan?
Can bir qəlbdə var olarsan
Bil, aldansan xar olarsan
İlhamı sev gəl insafa!..

XƏYALƏ

Gülərüz, xoşsifət, sən bir mələksən
Baxışın ahutək, ceyran Xəyalə.
Nolar ki, üzündən bir busə versən
Könlümü eyləsən xəndan, Xəyalə?!

Tazə-tər bir gülsən, üzündə jalə
Dişlərin dürdanə, yanaqlar lalə
Kipriklər ox kimi, qaşların halə
Gözünə olmuşam heyran, Xəyalə!

Nazını çəkərəm, qadan alaram
Qara gözlərinə qurban olaram
Gəlməsən hicrindən gültək solaram
Dərdimə bir sənsən dərman, Xəyalə!

Ümmanlar keçərəm mən yara-yara
Çatmaqçün sənintək nazlı bir yara
Oxlama qəlbimi, gəl vurma yara
Sən vermə qətlimə fərman, Xəyalə!

Gecəm də, gündüzüm ahü-fəqandır
Aşiqəm mən sənə, halım yamandır,
Sevgidə tək mənəm, Məcnun yalandır
Qoyma İlhamini giryan, Xəyalə!

BAXMA MƏNƏ

Məni oda yaxma sən,

Bir də belə baxma sən!

Məni ildırım vurur
Nitqim, dilim tutulur
Karıxıb dayanıram
Odlanıram, yanıram
Sürət ilə döyünür
Ürək yaman tələsir
Əlim, ayağım əsir
Məni həyacan kəsir
Gözüm görmür, kor olur
Qulaqlarım tutulur

Zalım, gəl insaf elə,
Bir daha baxma mənə!

REYHANƏ

Səni gördüm mən itirdim özümü
Ey_şux mələk, şirin dilli Reyhanə
Heyran oldum, çəkəmmədim gözümü
Gözü göyçək, incə belli Reyhanə!

Əvvəl sandım bu yuxudur mələksən
Fələk sirri-göydən enmiş kələksən
Sən hər kimsən-afət, mənə gərəksən
Gözəlliyin xalqa bəlli, Reyhanə!

Səni görən eşqə düşər, alışar
Sevgi dolar qəlbinə - coşar-daşar
Sən sevdiyin dünyada xoşbəxt yaşar
Gözəllərin ən gözəli Reyhanə!

Üzün ağdır, ay kimidir, halədir
Tər çiçəkdir, al yanağın, lalədir
Qulac-qulac saçların şəlalədir
Çatma qaşlı, qara telli Reyhanə!

Sanma, dərdin öldürəcəkdir məni
Bir gün taleh güldürəcəkdir məni
Sənə yaxın el biləcəkdir məni
Ey_sevgimin ilk-əzəli Reyhanə!

DEDİN DE...

Dedin de sevirsən məni nə qədər?
Söz ilə ifadə eyləsən əgər
Dünyada tutarsan nəyə bərabər?
Mən deyim, sən dinlə, qulaq as, gülüm,
Gör sənə nə deyir, söyləyir könlüm!

Sevgimi dərk etmək mümkünmü məgər
Söz ilə ifadə eyləsəm əgər?!
Dünyanın qəm yükün sevənlər çəkər

Mən deyim, sən dinlə, qulaq as, gülüm,
Dərdindən əriyir, çəkirəm zülüm!

Sevirəm mən səni dəryalar qədər
Gözündə gizlənən mənalar qədər
Mavilik meyyarı səmalar qədər
Mən deyim, sən dinlə, qulaq as, gülüm,
Ayişəm, gözəlim, saçı sünbülüm!

Tuturam bərabər səni Günəşə
Dövrəndə fırlanır Yertək, həmişə
Ay mənim sevgilim, gözəl Aişəm
Mən deyim, sən dinlə, qulaq as, gülüm,
Həmdəm ol könlümə, sevinin, gülün!

Bu sevgi özümü məndən alıbdır
Sağalmaz bir dərdə, qəmə salıbdır
Əlacım tək bircə sənə qalıbdır
Mən deyim, sən dinlə, qulaq as, gülüm,
Ya sənsən qismətim, ya da ki,ölüm!

***

QƏZƏLLƏR

Dərdimə gəl eylə çarə, işvəkarım, naz eyləmə
Gülər üzlüm, qara gözlüm, şux nigarım, naz eyləmə!

Sənsən yarım, qadan alım, alma canım, səni Tanrım
Yox qərarım, tab-təvanım, ey baharım, naz eyləmə!

Hicrindən başım ağardı, könlümü dərd, qəmlər aldı
Nazlı afət, gözəl mələk, ey dildarım, naz eyləmə!

Gecə-gündüz dərdin çəkib ahü-fəqan sızıldaram
Etmə böylə zülmü mənə, inadkarım, naz eyləmə!

İlham olsun sənə fəda, bəsdir, etmə ona cəfa
Ver könlünü binəvaya, tacidarım, naz eyləmə!

*****

Dilbərin ay üzünü gördükdə heyran oluram
Görməsəm ol afəti, gözləri giryan oluram.

Eşqindən o dilbərin, bir dəliyəm, divanəyəm
Fəraqi-Leylidə mən əhli-biyaban oluram.

Könlüm quştək qanad açır hər görəndə afətimi
Qəfəsdən də azad olur, sevinir, xəndan oluram.

Sevirəm çöhrəsini o gül üzlü nazlı yarın
Surəti vəsfində onun, şair, qəzəlxan oluram

Sevin, sevin ki, İlham, belə gözəl yarın var
Taleyimə şükr eyləyir, Tanrıya qurban oluram!

****

Durmuş idik çiçəklikdə, nigar ilə, ikilikdə
Şahid oldu bulaq bizə, çinar ilə ikilikdə

Nazlı nigarın saçının ətri məni məst eyləyir
Bulaq başı behişt bizə, gülzar ilə ikilikdə

İlk dəfədir əlim nazlı, sevgili nigara dəyir
Qəlbimiz də vurur bizim, iftixar ilə, ikilikdə

Utanırıq hər birimiz, cürət edib danışmırıq
Sanki, tutulmuş dilimiz, o yar ilə, ikilikdə

İlham, utanmaqla necə vüsali yarə yetərsən?
Bir zaman sən olacaqsan dildar ilə, ikilikdə!

****

Qəzəl ilə mən Vətəni mədh eyləmək istəyirəm
Sevgilimə, öz yarıma şer söyləmək istəyirəm

Mən sevirəm həm Vətəni, həm ananı, həm cananı
Bir də igid ərənləri, tərifləmək istəyirəm!

Həm şairi, həm nasiri, şer sevən hər adamı
Çox sevirəm, öz şerimdə vəsf eləmək istəyirəm

Allah kəssin paxılları, xainləri, düşmənləri
Kim ölkəmə əl uzatsa, məhv eləmək istəyirəm!

İlham, yaxşı bilirsən ki, mən sadədil bir adamam
Qəlb sındırmış nadan yarı, əfv eləmək istəyirəm

*****

Öz yarımdan başqasına könül vermək istəmirəm!
Mənə min könül verilsə, birin sevmək istəmirəm!

Vətənimdə soğan çörək mənə yağla bal kimidir
Başqa eldə qızıl qabda, heç nə yemək istəmirəm!

Yarımın bir xoş sözündən baği-cənnətdə oluram
Yüz incəbel gözəl qıza, gözəl demək istəmirəm!

Mən qonağa öz varımdan nə istəsə pay verərəm
Vətənimdən bircə qarış bəxşiş etmək istəmirəm!

İlham sevir Vətənini, bir də ki, nazlı yarını
Bülbül kimi mən hər gülə, qəzəl demək istəmirəm!

****

Kim sevərdi bu dünyada, söylə gülüm, mən tək səni?
Mən hər kəsə biganəydim, gözüm görürdü tək səni.

Qızlar mənə yanaşırdı məhəbbətlə, sevgi ilə
İstəmədim mən heç kəsi, bəyənmişdim çiçək, səni

Bir sən idin qibləgahım, kəbə evim, ziyarətim
Çox sevirdim, səcdə edir, bilirdim tək göyçək səni

Sənə qarşı ürəyimdə gözəl hisslər yaşadırdım
Xilaskarım tək sən idin, mən sanırdım mələk səni

İlham düşmüşdü bəlaya, acizanə çırpınırdı
Heyif ki, qismət olmadın, aldı ondan fələk səni!

****

Sevdiyimin güldür üzü, sözün düzü, Allah haqqı!
Çox gözəldir, ətir saçır saçı, özü, Allah haqqı!

Xoşbəxtəm ki, onu sevdim, verdim ona öz könlümü
Bənzərsizdir, qapradır yarın gözü, Allah haqqı!

Məni görür, gözün süzür, nazlı afət çilvələnir
Bilirəm ki, məni sevir, gülür üzü, Allah haqqı!

Tərif demək, vəsf eyləmək, bu gözəli yersiz olar
Ürək açır bu insanın hər bir sözü, Allah haqqı!

İlham razı bu sevgidə böyük qadir allahından
Tanrı qismət etmiş ona gülərüzü, Allah haqqı!

****

Ruh bədəndən uçdu getdi, səmalara, o, yad oldu!
Sevmədi bu cismi, canı, atdı getdi, o, şad oldu

Bədənim ruhsuz qalıbdır, ruh olginən bədənimə
Yiyəsizdir cismim, vəfasızdan azad oldu

Heç bir nəvaziş görmədim, bivəfadan mən biçarə
Bir sümüyəm, bir də dəri, könlüm evi bərbad oldu.

Möhtac idim şirin sözlü, gülər üzlü nazlı yarə
Bədxasiyyət, acı dilli, ilan kimi bir zad oldu.

İlhamın dərdi böyükdü, Allah etdi ona çarə
Can yiyəsi Allah idi, bir Allahdan imdad oldu.

****

Anlamıram cəh-cəh edir, bülbül güldən nə istəyir?
Eşq odunda o qovrulur, cani-dildən, nə istəyir?

Hey oxuyur avaz ilə, o özünü fəda edir
Gülsə laqeyd, heç baş açmır bu bülbüldən, nə istəyir?

Bülbül aşiq Məcnun kimi, gül kolunda sərgərdandır
Sevgisini bəyan edir, bülbül zildən, nə istəyir?

Əsrlərdir bu sevgiyə şer yazır şair olan
Xəbərsizdir bülbül və gül, o aqildən, nə istəyir?

İlham özü mat qalıbdır, həm bülbülə, qəzəlxana
Deyir, görən bunlar bahəm, qızılgüldən nə istəyir?

****

Könül verdim məh camala, şirin sözlü istəmədi
Çox yalvardım ol nigara, qara gözlü, istəmədi

Eşqi ilə Məcnun kimi mən aləmdə sərgərdanam
Fəda etdim cismi-canım, o gülüzlü istəmədi

Dedim, ey yar, nazlı nigar, dərdin, məni öldürəcək
Surəti nur, günəş misal, gülər üzlü istəmədi

Sən qəlbimə saldın atəş, bu od ilə mən yanıram,
Rəhm eylə gəl, qoy qalmayım qəlbi közlü, istəmədi

Sevdaya gəl, İlham ilə bu eşqdə, nazlı dilbər
İnkar etdi məhəbbəti, yarla gizli, istəmədi

****

Bilirdim ki, bu sevgidir, aşiq idim gözələ mən
Şux nigarım bəlkə sevə, ümid edirdim hələ mən

Saf eşqimi nazlı yara bəyan etmək, söyləməkçün
Başqa vasitə görmədim, ümid etdim qəzələ mən

Dedim azəri dilində, mən bu dili korlamadım
Düzdüm, qoşdum sözlərimi, şer gətirdim əmələ mən

Gördüm fikri çatdırmaqda mən özümə zülm etmişəm
Yəqin etdim ki, çataram qəzəl ilə amala mən

Qəzəl ilə eşq yetirən çoxdan çatmış öz yarına
İlham ilə yalvarıram çəmənzarda, o gülə mən!

****

Nazlı afət, dərdindən mən mey içdim əyyaşa döndüm
Biganəsən eşqimə sən, soyuqdan qar, qışa döndüm

Asan deyil dərdin çəkmək, mən içimdən əriyirəm
Gecə-gündüz xiffət edib, gözümdə qan, yaşa döndüm

Hər gün yarı görmək üçün, mən yolunda dayanıram
Hərəkətsiz dayanmaqdan heykəl olub daşa döndüm

Bu naz ilə sən keçirsən buna dözməz daş da, gülüm
Həsrətindən saç ağardı, qar kimi ağbaşa döndüm

İlham sənə vurğun idi, o zar oldu sevgisindən
Mən də gördüm faydası yox, yardan etdim haşa, döndüm

****

İstəyimiz səninlə yar, məşhur idi, indi yox!
Səndən oldu vəfasızlıq, sevgi itdi, indi yox!

Mən idim kölgən sənin, bunu bilirdin ey mələk
Eşqindən mən pərvanəydim, sevgi bitdi, indi yox!

Şölə saçırdı camalın, mələksima, gözəl idin,
Qayıtmaz o günlər afət, keçdi getdi indi yox!

Dahi oldu qəzəl ilə, Vahid şair öz dövründə
Qəzəlxana rəhmət olsun, haqqa yetdi, indi yox!

İlham, bil ki, faydasızdır tənə etmək vəfasıza
Ol arxayın, hər tənəni Vahid etdi, indi yox!

****

Günəş çıxmır neçə gündür, səbəbkarı sən imişsən
Gecələr də ay görünmür, inadkarı sən imişsən

Kim ki görür aşiq olur, eşqə düşür məcnunlaşır
Cavanlar ki, xəstə düşür, işvəkarı sən imişsən

Səni gördü ağlı çaşdı, aşiq oldu gülə bülbül
Bülbül güllə eşqə düşür, baiskarı sən imişsən

Aşiqlərin hey oxudu, sənə görə bülbül oldu
Cəh-cəh edən hər bülbülün ustadkarı sən imişsən

İlham sənə vurulandan özün bilmir, şer yazır
Xiffət çəkir, əldən düşür, tək dildarı sən imişsən!

*****

Sənə olan sevgim dönməz, inan gülüm, mən bilirəm
Afətimsən, nazlı mələk, ay sevgilim, mən bilirəm

Aşina olmaq istəyən gərəkdir ki, eşqə düşə
Sevgin ilə necə vurur köksdə könlüm, mən bilirəm

Səndən ətri alır güllər, ətirlənir ətirşahlar
Saçlarını iyləmişəm, ay sünbülüm, mən bilirəm

Dünyada sən bircəsən ki, ürəyimi fəth etmisən
Sənə olan sevgi məni qoymaz ölüm, mən bilirəm

Könlünü ver İlhama sən, öz könlünə həmdəm etsin

Layiq bilir təkcə səni, qızılgülüm, mən bilirəm!

*****

Yanmaq ilə ad çıxarıb əgər pərvanə, neyləsin?
Yanır, amma çata bilmir o dərmanə, neyləsin?

Canın sevməz aşiq olan, cananını o çox sevər
Dərdə düşər, olsa ona yarı biganə, neyləsin?

Sevən aşiq məcnunlaşar, yarda əgər rəhm olmasa
Eyləməsin ahü-zar, yetməsin fəqanə, neyləsin?

Yarına baxmır o nigar, əğyar ilə xoş danışır
Bəxti qara sevən aşiq gəlməsin nalanə, neyləsin?

İlham sevir o mələyi, öz eşqindən dönən deyil
Gözü yaşlı binəva, gəlməsin giryanə neyləsin?

****

Könlüm gəlibdir zinhara, yenə ahü-zar əlindən
Heç bilmirəm gedim hara, gözləri xumar əlindən

Mən sevdiyim nigar ilə əğyar yenə söhbət edir
Gül üzlü məndən soyuyub, öləcəyəm yar əlindən

Varmı görən bu dünyada, mən qədər bir bəxti qarə?
İndi yarı necə alım, bu zəhərli mar əlindən!

Gözəlləri kim ki, sevdi, işi oldu ahü-fəqan
Günü qarə, aşiqlərin, vəfasız nigar əlindən

İlham, sən ki, xub bilirdin, gözəllərin yox vəfası,
Sevmisənsə vəfasızı, etmə dad əğyar əlindən!

*****

Mən neynirəm gözəli ki, xoş xasiyyət, canan deyil
Olsa da o, mələksima, eşq oduna yanan deyil

Göz görməsə, ürək tutub, aşiq olub, canan sevməz
Dili acı, bədxasiyyət, məni aşiq sanan deyil

Bülbülün güldən istəyi bir cavabdır sevgisinə
Gözəl-göyçək qızılgül də, heç bülbülü qanan deyil

Leyli pak bir qönçə idi, Məcnunu məcnun eylədi
Leyli kimi yar sevənlər ilqarını danan deyil!

İlham sevər o yarı ki, Leyli qədər sevgisi var
Leyli olsa, Məcnun olmaq heç əfsanə, yalan deyil!

****

Mən sevmişəm səni, gözəl, başqa sevən yalan sevər
Dilin zəhər, dodağın bal, zəhri-marı nadan sevər

Sən namuslu həm ismətli, qara gözlü dəymədüşər
Arxayınam, inanmıram, kimsə səni asan sevər

Sevməyimə səbəb səni, özcə zəhərli dilindir
Heç kəs sənə cürət etməz, gedər özgə canan sevər

Bu dil səni qoruyacaq, heç kim yaxın durmayacaq
Zəhri dil marı öldürməz, könül sevsə ilan sevər

Mən sevirəm zəhər dilli, incə belli nazlı yarı
Sevirəm, de zəhri dillə, İlham səni inan, sevər!

****

Sevirəm! demir mənə sevgilim, dilin sənin
Sınıbdır bəlkə məndən, ey afət, könlün sənin?

Diqqət eyləmir mənə sənin qara gözlərin
Gen gəzirsən, əlimə dəyməyir əlin sənin

Əğyar sənlə danışır, səni peşman eyləyir
Nədən pərişan olmuş, o qara telin sənin?

Yarə yalan deməyi caiz bilmə özünə
Axıb donmuş jalədir gözündə selin sənin

Sevəcəkdir dünya qədər, arxayın ol, gülüm
İlhama olmuş olsa ürəkdə meylin sənin

****

Sevirəm o şairi ki, bir şux mələk yardan yazır
Həm bülbüldən, həm də güldən, nazlı işvəkardan yazır

Qızılgülə bənzəyirsən, dedim, yazdım yarıma mən
Yarım mənə cavabında güldən deyil, xardan yazır

Dərdimi izhar eylədim, dedim ki, mən qəmzədəyəm
Car eylədi aləmə ki, sərgüzəşti-sərdən yazır

O afətin eşqi ilə cəh-cəh etdim bülbül kimi
Xoşlanmadı cəh-cəhimdən dedi, qəmdən-dərddən yazır

Ağlamaqdan, sızlamaqdan İlham daha gəldi cana
Öz dərdini gülüzlüyə qəzəl ilə hərdən yazır

****

İşıq saçır surəti yarın, aşikar, bu gecə
Ay üzündən ay gizləndi , etdi fərar, bu gecə

İşıq saçan surətə pərvanəyəm, olmuş əsir
Məh cəmalın dövrəsində tutmuş qərar, bu gecə

Pərvanələr çox sevməkdən odlanarlar, yanarlar
Pərvanəni dərk eylədim, niyə yanar, bu gecə

Bahar fəsli, gül ətirli, yar ətirli mənimlə
Ətirşahdır güllər içrə, sevdiyim yar, bu gecə

Könül verər İlhamiyyə, hər ikisi şad olar
Ay camallı, gül ətirli, sevgili dildar, bu gecə!

****

Dünyanı görə bilmirəm, göz önündə canan, sənsən
Bir kimsəni istəmirəm, ürəyimdə inan, sənsən

Tərk edibdir məni yuxu, ürəyimdə həsrət, qorxu
Təlx olubdur həyat mənə, şirin-şirin yatan sənsən

İxtiyarım əldən gedib, sanki, sənə qul olmuşam
Hər kimsəyə gücüm çatar, aciz edən asan, sənsən

Olmuş acizi-avarə, sənə yalvara-yalvara,
Ahü-fəqan eyləməzdim, məni edən nalan, sənsən

Dərd də özün, dərman da sən, sən istəsən sağaldarsan
İlhamın çarəsi səndə, ona təbib olan, sənsən!

*****

Vətənsiz dünya mənə, baği-cənnət olarmı?
Vətənsizin başında tac-şad, xoşbəxt olarmı?

Bülbül qızıl qəfəsdə ürəkdən şad ola bilməz!
Qızılgül yurdsuz bülbülə yar, afət olarmı?

Vətənimdə tikanlı gül daha əzizdir mənə
Yad bir eldə, şux nigarda, mehr-ülfət olarmı?

Vətənin bir gülün çəmənzarə dəyişmərəm
Qəriblikdə min gülə, könül rahat olarmı?

İlham seyr eyləyir Vətənini, ilhamlanır
Vətənsiz şair qəlbi şad, salamat, olarmı?

****

Olmasaydı ustadilər, neylərdilər şer sevənlər?
Olmasaydı Məcnun əgər neylərdi nigar sevənlər?

Nizamini, Füzulini, həm Vahidi xalqım sevir
Kim ki, bunlardan öyrənir, sevilir əşar sevənlər

Şeyx Nizami qəhrəmanı Məcnun ilə savab etdi
Özlərini məcnun edər, düz əhdü-ilqar sevənlər

Öz eşqində saxta olan hey and içər sevdiyinə
Üzdə yara, sadiq olub həmişə, əğyar sevənlər

İlham sevmiş nigarını, təmənnası yox eşqində
Təsdiq edər hər sözümü, mənim qədər yar sevənlər!

*****

Yetdi vüsali-yarına kim ki, şux nigar sevirdi
Evləndilər o kəslər ki, düz əhdü-ilqar sevirdi

Mən sevirdim o gözəli, o qız əğyara evləndi
Bilmədi ki, məni ondan daha gözəl yar sevirdi

Vurulmuşdu öz-özünə, məni heyhat, bəyənmədi
Onu sevən əyyaş idi, başqa işvəkar sevirdi

Aldandı o riyakara, onu vüsala yetirdi
İncə, gözəl qızlar ilə vüsalı əğyar sevirdi

Həyatda eşqdə aldanmaq, aşiqi bədbin eyləyir
İlham əslən xar olmadı, onu bir dildar sevirdi

****

Bircə dəfə baxmaq ilə saldı yaman hala məni
Məcnun edib tanıtdı yar, hər yerə, mahala məni

Gözlərinin vurğunuyam, yoxdur məndə səbrü-qərar
Cəzb eylədi, əsir oldum, saldı qeylü-qala məni

Baxışından nitq tutulur, itirirəm mən özümü
Göz qaralır, baş ağarır, atdı tamam dala məni

Bir gündəyəm, hamı mənə təəssüf edir, heyfsilənir
Şad günlərim əldən getdi, saldı bəd əhvala məni

Yalvarıram Tanrıya ki, İlhamiyyə rəhm eyləsin
Vurulduğum o gözlərə yetirsin vüsala məni!

****

Ala gözlü nigarını aşiqi-zar gəzər yenə
Hücum çəkər qəm ləşkəri, binəvanı əzər yenə

Tək qalıbdır çəmənzarda, həsrət ilə intizarda
Çələng hörər nigarına, gül-çiçəkdən üzər yenə

O gözləyir şux nigarı, gələcəkdir görüşünə
Çəmənzarda məhəbbətlə öz yarını süzər yenə

Nəğmə qoşar nazlı yarə, qəzəl ilə tərif edər
Çox yazıbdır o gözələ, şah əsərin yazar yenə

İlham üzər lalələri, incə-incə, bircə-bircə,
Sevdiyinin tellərinə öz əliylə düzər yenə!

****

Gözəlim, aşiqinə zülm etməyi sanma şücaət

Bir kimsəyə səndən başqa, eyləməz könlüm şikayət

Mən sevirəm nazlı yarı, biganədir yarım mənə
Eşq aləmi viranəmi, yoxmu məgər heç ədalət?

Sevgi Allah vergisidir, layiq bilmiş mənə Tanrım
Aşiqinəm, ey şux mələk, etməmişəm ki, cinayət?!

Gecə-gündüz duakaram, səni Tanrıdan dilərəm
Sevgi verən yarını da, qismət eyləyər nəhayət

Gec də olsa qovuşaram yarım ilə vüsalə mən
İlham, burax ahü-zarı, Tanrıdadır hər kəramət!

****

Nazlı nigar, eyləmə gəl sən günümü qarə belə
Yaxşı deyil zülm eyləmək, səni sevən yarə belə

Bəzənmisən tovuz kimi, şanə çəkib tellərinə
Hamı deyir, cənnət quşu görən gedir hara belə?

İnsafa gəl, bir nəzər sal, dərdin məni öldürəcək
Vurma yaralı könlümə, dübarə bir yarə belə

Hörüklərin şahmar ilan, sürünərək yerlə gedir
Zülflərinlə sən, ey gözəl, çəkmə məni darə belə

Lütf eyləyib bir busə ver, səni sevən İlhamına
Eyləmə gəl ey mah camal, aşiqi avərə belə!

****

Nəzər sal öz aşiqinə, gül, könlünü şad eylə sən
Bəxti qarə biçarəyə lütf edib imdad eylə sən

Xəyalında təkcə sənsən, unutmuşdur o, özünü
Sevən könüldə tut qərar, bərbadı abad eylə sən

Bulaq başı, aylı gecə, söz verərək əhd etdiyin
O günlərə ay bivəfa, olma dönük, yad eylə sən

İnanmırsan imtahan et, qoy eşqindən dağ, daş çapsın
Istəmirsən Məcnunu gər, aşiqi Fərhad eylə sən

Bir busə ver, sona yetsin acı hicran, bu intizar
İlham öpsün dönə-dönə, aşiqinə dad eylə sən.

*****

Səni sevmirsə aşiqin, bihudə fəryad eyləmə
Özün bəxti qarəsənsə zəmanədən dad eyləmə

Könlünü ver ləyaqətli, nəcabətli bir gözələ
Riyakar nigar əlindən ahü-zar, imdad eyləmə!

Yaxşı düşün , uyma könül, incəbelli, qaratelə

Yoldan ötən hər gözələ sən özünü ad eyləmə!

Sızıldama bülbül kimi, fəryad etmə gül üstündə
Bir gülün ki, tikanı var, o gülü heç yad eyləmə

Vurulma sən üzüdönük, qəlbiqarə hər gözələ
Ay İlhami, qədrini bil, könlünü bərbad eyləmə!

****

Möhtac etmisən yenə də təbibə, dərmanə məni
Tabi-təvanım gedibdir, həsrət salıb qana məni

Sərgərdanam Məcnun kimi, çöli-biyaban gəzərəm
Bu intizar öldürəcək, çəkmə imtahana məni

Gecə-gündüz dua edib ulu Tanrıdan dilərəm
Rəhm eyləsin mən yazığa, yetirsin canana məni

Sevən yoxdur onu kimsə mən biçarə aşiq qədər
Biganədir, naz eyləyir, gətiribdir canə məni!

Şair İlham, töhmət eylə, bəlkə zalım rəhmə gələ
Gül eşqində bülbül kimi gətirib əfqanə məni

****

Keçdi cavanlıq, ömrümə payız gəldi, biçarəyəm
Qarşıda qarlı qış-qocalıqdır, günü qarəyəm

Dərdin çəkirəm dövrün, zamanın, dünya qarışıbdır
Çərxi fələk gərdişində mən bir aciz, avarəyam

Həyatımda acılar çox, gülmədim də, sevinmədim
Oxlayıbdır fələk məni, qəlbi qırıq, həm yarəyəm

Tazə güldür, tər çiçəkdir, üzü gülər, şən cavanlar
Narahatam onlar üçün, mən ürəyi səd parəyəm

Ulu Tanrı rəhm edərmi, yaratdığı insanlara?
İlham, sual etmə məndən, mən kiməm ki, nəkarəyəm?

**

BAYATILAR

O, ilkimdir, əzəldir
Gündə saçın düzəldir
Qurban olum nəvəmə
Mənim nəvəm gözəldir

**

Mən balamı sevirəm
Özgə bala neylirəm?
Gündə öpür balamı,
Allah, saxla! deyirəm

**

Mənim balam, bal balam
Oyna balam, gül balam
Sən yanımda olmasam
İyləmərəm gül, balam!

**

İstəyirəm Vətəni
Çox sevirəm, Vətəni
Vətən qurban istəsə
Qurban etsinlər məni!

**

Nə desən qurban sənə
Mal və dövlət can sənə,
Vətən Qurban istəsə
Özüm qurban Vətənə!

**

İgid at amanatı
At tanıdar elatı
İgid atı at eylər
Tərifləyər el, atı!

**

Vətənimdə çiçəyəm
Hamı üçün göyçəyəm
Amma qərib ölkədə
Güldən qopmuş ləçəyəm

**

Mənim balam, can balam
Can sənə qurban, balam
Vətənin keşiyində
Sayıq ol, hər an, balam!

**

Ay bala, nadinc bala
Oturginən dinc bala
Dağıtdın hər tərəfi
Qoymadın bir künc qala

**

Nəvəmə qurban olum
Ona fəda mən olum
Balasının toyunda
Deyib-gülən mən olum

**

Qurban olum balama
Daha bəsdi, ağlama
Hər dərdin mənə gəlsin
Toxunmasın balama

**

Saçı sünbül balalar
Dili bülbül balalar
Nənələr qurban olar

Sizə, ay gül balalar

**

Uşaqlar, deyim Sizə
Nursunuz ömrümüzə
Xoş gələcək Sizindir
Allah olsun yar Sizə

TƏMSİLLƏR

MƏSULİYYƏTSİZ PİŞİK

Bir anbarda bir zaman
Yaşayırdı bir siçan
Əlbir olub pişiklə
Zənbillə yox, yeşiklə
Ərzaqı daşıyırdı
Bazarlarda satırdı
«Şefi» pişik qağaydı
Özü də bir ağaydı
Siçanın keyfi çağdı,
Yediyi balla-yağdı
Günlərin bir günüdə
Pişiyin şad günündə
Anbarı yoxladılar
İşləri korladılar
Anbardakı kəm-kəsir
Pişiyi etdi əsir
Pişik həbs-cəza aldı
Siçan qırağda qaldı.

PALTARYUYAN MAŞININ NƏSİHƏTİ

Atdı tikməyin daşın
Paltartikən bir maşın
Dedi, yoruldum daha!
Paltar satılır baha
Mənə ki, xeyri yoxdur,
Amma ziyanı çoxdur.
Neyləyirəm hey tikim,
İşləyim, zəhmət çəkim?!
Onun yanında duran
Paltaryuyan səsləndi
Aram-aram dilləndi:
-İşləməsən bil ki, sən
Tezliklə paslanarsan!

SƏNƏTİLƏ SEVİLİR

Sərçə cik-cirik edir
Hamını bezikdirir
Bülbülsə gül bağında

Günün hər bir çağında
Oxuyur mahnısını
Həvəslə, böyük zövqlə
Yorulmadan, o, şövqlə
Məftun edir hər kəsi
Mələhətli, xoş səsi
Həyatda da belədir,
Bəyənilir, sevilir
Kimi öz xoş səsiylə
Kimi də yorur bizi
Cik-cirik etməsiylə!

TOYUĞUN İRADI

Xoruz banladı
Onu danladı
Iri, çil toyuq.
Tülkünü duyuq
Salarsan, dedi,
Xəbərdar etdi:
-Tutar aparar
Səndən ayırar
Mənsiz qalarsan,
Peşman olarsan!

TÜLKÜ İLƏ İTİN DOSTLUĞU

Tülküylə it dost oldu
Daha da sərbəst oldu
Toy elədi özünə
Yolu açıldı hinə
Gündə bir toyuq yedi
Biri bəsimdir dedi
Təhlükəni qanmadı.
Bu iş belə qalmadı.
Hin sahibi pərişan
Tüfənglə aldı nişan
Güllə tülkünü aldı
Tülkünün leşi qaldı.
İt həyətdən qovuldu –
Rüsvay, biabır oldu
Tülkü qurmuşdu hiylə
Alnından dəydi güllə
Oğurluq olsa məqsəd
Bu cür olur aqibət!

DOLU ÖMRÜ

Yağış yağantək
Hopdu torpağa
Dolu yağışı
Götürdü lağa:
-Yağsan da, yatdın
Torpağa batdın.
Dolu da yerdə

Heç çox qalmadı
Onun da ömrü
Uzun olmadı

BUXARIN SEVİNCİ

Böyük qaynar qazana,
-Mən uçdum getdim, qağa!
Buxar sevincək dedi
Uçdu dəydi qapağa.
Yenə suya çevrildi,
Başladı qaynamağa.

GÜLLƏRİN RƏQABƏTİ

Tərifləndi həmişə
Novruzgülü, bənövşə
Bu güllərlə bəzəndi
Hər yer – çöl, yamac, meşə.
Əzizləndi, sevildi
Qızılgül görünməmiş
İkisi də dərildi!

İT VƏ ONUN KÜÇÜYÜ

İt kiməsə hürürdü
Küçük onu ötürdü
Bunu hamı görürdü
Hamı itə gülürdü...

ÖZÜ LÜT GƏZİRDİ

Ay qız, yaxşı geyinin,
Açıq-saçıq eyibdir
Geyimə diqqət edin,
Abır, həya gedibdir!
İynə hey deyinirdi,
Özü lüt! –geyinmirdi...

KEÇİ VƏ QOYUN

Meşədə otlayırdı
Keçilərlə qoyunlar,
Edirdilər oyunlar
Qoyun oynaqlayanda
Quyruğu atlanırdı
Eyib yeri görünür
O, möhkəm utanırdı
Keçininsə quyruğu
Daima dik dururdu
Keçi qoyuna gülür
Öz eybini görmürdü.

XORUZUN SƏHVİ

Bir xoruz, iki toyuq
Yaşayırdı bir hində
Vaxt gəldi kürt düşdülər

Toyuqlar eyni gündə
Xoruz hər gün, hər səhər
Hinə gəlib gedirdi
Toyuqları qoruyur,
Gözətçilik edirdi.
Vaxt keçdi, gəldi vədə
Yumurtadan sap-sarı
Cücələr çıxdı çölə
Xoruz bərk şübhələndi
Ürəyinə xal düşdü,
Toyuqlara hirsləndi
Onlarla üzülüşdü.
Cücülər iriləşdi
Rəngləri də dəyişdi
Beçələr qırmızıydı
Fərələrsə narıncı
Toyuqlar ağladılar
Bu işə, acı-acı!

FİTƏ BASILDI

Uzunqulaq səsindən
Xaricə getməsindən
Konsertlər verməsindən
Oxumaq həvəsindən
Səhnədə çox danışdı.
Dedi, həddini aşdı...
Axır fitə basıldı
Düşdü səhnədən, qaçdı!

EŞŞƏYİN XAHİŞİ

-Mənə eşşək deməyin
Daim təhqir etməyin!
Uzunqulaq asqırdı,
Yazıq səslə anqırdı
Lütf edərsiz, desəniz
Siz mənə uzunqulaq,
Ya da sadəcə, ulaq!

ÇAYNİKLƏRİN SAVAŞI

İki çaydan peç üstə
Savaşdılar iş üstə
İri çaydan qaynatdı,
Belə dedi, anlatdı:
-Suyu mən qaynadıram!
Çayı mən çayladıram.
Dəm çaydanı bozardı
Bərk hirsləndi, qızardı
Dedi, qaynatmaqla iş
Qurtarmamış, bitməmiş
Əyər mın dəmlənməsəm,
Qızarıb tərlənməsəm
Çay da əmələ gəlməz,
Ətirlənməz, içilməz!

SƏS KƏSİLDİ

Rəqəmlər hesablandı
Suallar cavablandı
Forslandı kalkulyator.
Dedi dünyada mənəm
İnsandan çox bilənəm!
İnsansa gülümsədi
Bu sözdən incimədi
Enerjini ayırdı
Mənbədən, ləngimədi
Kalkulyator dayandı.
Ekran ağardı təmiz,
Susdu, səssiz – səmirsiz!

LOVĞA GƏNƏ

Gənənin yaşayışı
Rahat, fiavan idi
Dil ağıza qoymurdu
O, hamıya deyirdi:
-Sakit yaşayış yerim,
Nəyə görə işləyim?
Yeri lovğa gənənin
Qara, qaşqa inəyin
Quyruğunun altıydı
Sakit və rahatıydı.

BAŞA BƏLA OLAN SƏS

Bülbül öz cəh-cəhiylə
Meşədə sevilirdi
Eşşək isə aramsız
Anqırmağı sevirdi
Meşədəki heyvanlar
Bülbülə olur heyran
İndiyədək olmamış
Onun səsindən doyan
Eşşəyin anqırmağı
Başına bəla idi –
Canavar eşidirdi
Gəlib onu yeyirdi!

DƏMİRAĞAC MÖHKƏMDİR

Ağaclar girdi bəhsə
Onlar verdi səs-səsə
Palıd ağacı dedi:
Özünü tərif etdi:
-Mən iriyəm, yekəyəm
Möhkəmlikdə də təkəm!
-Baxmayın ki, yaşam mən
Sanki qara daşam mən!
Dilləndi gülə-gülə
Tikanlı qaragilə.
Daha sonra qarağat

Durammadı farağat.
Dedi, möhkəm tək mənəm,
Mən güzəştə getmərəm!
-Tikanlarım iynədir,
Möhkəmdir, iynə nədir?!
Bunu alça söylədi,
Fikrin bəyan eylədi.
Deyilən bu sözlərə
Özünü öyənlərə,
Sinəyə döyənlərə
Hamının bildiyini
Ağacın kimliyini
Dəmir möhkəmliyini
Dəmirağac söylədi,
Sakitcə gülümsədi...

ZİREHLİ BAĞA

-Mənim zirehim
Möhkəm, əzilməz
Güllə də dəysə
Heç deşə bilməz!
Dedi, forslandı
Çanaqlı bağa
Yolu keçərkən
O, soldan sağa
Bu vaxt bir maşın
Keçdi üstündən
Bağa sıçradı,
Öz zirehindən!

PARAZİT ZƏLİ

Sorduğu qanı
Qusurdu zəli
Üstünə onun
Duz tökən kimi,
Ölürdü zəli.

QEYRİ-BƏRABƏR ZƏHMƏT

İki əqrəb saatda
Yol gedir hər saatda
Qısa əqrəb azacıq
Uzun əqrəbsə yazıq
Tam, bütöv bir dairə
Yol qət edir, hasilə
Gəlir, olur bir saat
Fərqləndirilmir heyhat
Gördükləri işləri
Onların gərdişləri.

NANKOR ÜLGÜC

Ülgüc yaman küt idi
Pis idi yaşayışı

Qayışda itiləndi,
Sonra kəsdi qayışı!

ÖZÜN ƏYRİSƏN

Güzgülər içrə bir əyri güzgü
Əydi ağzını, qıydı gözünü
Dedi, ən gözəl adamın belə
Pis göstərirəm gözəl üzünü!

Yanında duran doğruçu güzgü
Əyri güzgüyə tutdu üzünü
Dedi, bax mənə, sən gör özünü
Özün əyrisən, qıyma gözünü!

GÖY QURBAĞA

Göl qırağında
Bir göy qurbağa
Aludə oldu
Quruldamağa
Ordları doldu
Şar kimi oldu
Hava üfürdü
Sanki, bir uşaq,
Rezin şarına
Balaca qoçaq.
Şiddətləndirdi
O öz səsini,
Musiqisini.
Bütün olay da
Baş verdi onda –
Səsin eşitdi,
Bir çaqqal yedi
«Musiqi sevər»
Axşam və səhər
Bu qur-qur edən
Axmaq bağanı,
Göy qurbağanı!

ALBALININ CAVABI

Bağda gavalı
Dedi, albalı
Nə meyvədir ki?
Sümükdür sanki!
Əti yox onun
Suyu çox onun
Ondan mürəbbə
Olmur elə də.
Turş olur kompot...
Dedi, ay kobud!
Albalı ona
Sözünü sona
Qoymadı yetə:

-Səni kim yesə
Qarnı ağrıyar
O hey zarıyar
Mənisə xəstə
Kompotda içsə
Soyuqdəyməsi,
Xəstələnməsi,
Keçib gedəcək,
O hiss edəcək
Özünü sağlam
Loğmanam, loğman!

İŞILDABÖCƏK

İşıldaböcək
Dedi, mən gərək
Yarışa girim
Gücüm göstərim
Gecə yanara
Böyük fanara
Bu vaxt dirəkdə
Bir lampa yandı
Yer işıqlandı,
Heç görünmədi
İşıldaböcək-
İşığa düşcək!

HÖRÜMÇƏYİN OVÇULUĞU

Hörümçək eşitmişdi
Kimsə ona demişdi
Tordan tələ qururlar
Çoxlu balıq tuturlar.
Hörümçək sudan qorxdu
Ağacda torun qurdu
Ona görə balıq yox,
Tutduğu milçək oldu!

SƏRÇƏ TUTDU, YEDİ!

Öz səsiylə fəxr etdi
Vokalistəm mən dedi
Hamıya təqdim etdi
Həddi aşdı, o, amma...
Məhv oldu cırcırama.
Onun səsin eşitdi
Sürətlə hücum etdi
Boşboğaz «sənətçini»
Sərçə tutdu, cəld yedi

ZƏRBƏ DƏYDİ

Ağcaqanad
Çaldı qanad
Uçdu, uçdu
Gəldi qondu

Sordu qanın
Bir insanın
Doydu, şişdi,
Uçub getmək
Çətinləşdi.
Üzərinə
Zərbə endi
İçdiyi qan
Səpələndi!

GÜCÜNƏ ALDANDI

Toplan özünü
Güclü sanırdı
Həyətdə hürür
O, forslanırdı

Hürdü inəyə
Bu dəfə Toplan
Öz qüvvəsinə
Arxayın olan

Tutarlı təpik
Dəydi Toplana
Dünya qaranlıq
Oldu heyvana!

KUDU VƏ BALQABAQ

Bostanda kudu
Hamını yordu
Hey tərifladi
Kudu dadını
«Qinnesə» saldı
O, öz adını
Güldü balqabaq
-Hər şeydən qabaq
Siz fikirləşin
Bir diqqət edin,
Mənim adıma,
Baxın dadıma!

QARĞA FƏRASƏTİ

Hündürdən uçdu
Bir ala qarğa
-Mən də qartalam!
Söylədi xalqa.
Uçdu ov tapdı
O, ov eylədi
Ov ilan deyil
Koramal idi.

LOVĞA SAĞSAĞAN

Dedi, sağsağan
Mənəm çalağan!

Kimdir mənimtək
Siçanı tutan,
Ya da ki, hindən
Fal oğurlayan?!

KOBRA VƏ MANQUST

Bərk fışıldadı
Kobra dik qalxdı
Meydan oxudu,
Ətrafa baxdı
Manqustu gördü
Qəlbi döyündü
Kolluğa tərəf
O, tez süründü

GƏZƏYƏN XORUZ

Qonşu həyətə
Dadandı xoruz
Hində toyuqlar
Qaldılar onsuz
Bir gün qonşuda
Söyüldü xoruz,
Al qana batdı
Döyüldü xoruz
Döndü geriyə
Əzilən xoruz
Əli hər yerdən
Üzülən xoruz!

ZATIQIRIQ İT

Kefi kök bir it
Vardı bir evdə
Kolbasa, ətdi
Yediyi gündə,
Hər cürə qayğı
Bu itə vardı.
İt sülənməmiş
Bərk darıxırdı...

PİŞİYİN «MƏRHƏMƏTİ»

Çəkirdi gündə
Deşikdə keşik
Siçan tuturdu
Yekə, boz pişik
Əvvəl siçanla
Bir az oynayır
Amma qaçmağa
Onu qoymayır
Tanış edirdi
Onu işinə,
Sonra çəkirdi
İti dişinə!

SİÇAN ALDANDI

Hələ heç pişik
Görməmiş siçan
Aldandı, dedi:
-Qorxmuram ondan!
Çıxdı şəst ilə
Deşikdən çölə
Zərbə endirdi
Pişik hirs ilə!..

TOYUQLAR VƏ ÖRDƏKLƏR

Hinin üst rəflərində
Toyuq-cücə yatırdı
Hində aşağı yerlər
Örədklərə çatırdı
Bu səbəbdən toyuqlar
Hey üstdən batırırdı
Ördəklər hər gün çimir
Üst başın arıdırdı.
Qonaq gələnədə evə
Toyuqlar kəsilirdi
Çirkli ördəklər isə
Sağ-salamat gəzirdi...

ÖRDƏK VƏ CÜCƏLƏR

Kürt düşmüşdü bir ördək
Onun kürtlüyün görcək
Ora-bura getdilər
Tez tədarük etdilər
On-iyirmi yumurta
Qoydular ördək altda
Toyuğun yumurtası
İdi bunlar -əsası...
Zaman keçdi aradan
Çıxdılar yumurtadan
Əhvalatdan xəbərsiz
Cücələr şən, kədərsiz
Ördəyə sığındılar
Onu ana sandılar.
Su quşuna su gərək –
Çaya yol aldı ördək
Ördək üzürdü suda
Balalarsa quruda
Ora bura qaçırdı
Hey fəryad qoparırdı,
Sanki, batacaq ördək
Çağırırdılar kömək

XİYAR TƏRİFLƏNDİ

Xiyar özündən

Yaşıl rəngindən
Razı danışdı,
Gözəlliyindən:
-Çox sevilirəm.
Heç saralmamış
Mən dərilirəm
Rəngim yaşılkən
Tez yeyilirəm
Eşitdi bunu
Pomidor dedi:
Nə olsun ki, sən
Tez dərilirsən?!
Mən olan yerdə
Az yeyilirsən
Çox həyalıyam
Mən qızarıram
Sənsə saralsan
Tağda qalarsan!

KİRPİ VƏ İLAN

Kirpi tutdu
Bir ilanı
İlan bərkdən
Fışıldadı
Naçar qaldı
Haça dilin
İşə saldı:
-Söz verirəm
Kirpi ağa
Mən çalmaram,
Heç sancmaram!
-Çox demisən
And içmisən
Sözə əməl
Etməmisən!
Dilin haça
İki üzlü
Riyakarsan
Sözün düzü.
Kirpi dedi
Sonra yedi
O ilanı.

UZAQGÖRƏN GÜRZƏ

-Sənə ustad deyərəm
Mənə çalmaq öyrətsən
Müəllimim olarsan
Sən mənə kömək etsən!
Xahişini gürzəyə
Koramal çox həvəslə
Dedi, mülayim səslə.
Anlatdı koramala
Gürzə söylədi belə:
-Sən tənbəlin birisən

Həm də bir az irisən
Diqqət eyləmir mənə
Çoxu oxşadır sənə
Anlamayırlar heyhat
Eyləməyir ehtiyat.
Mən görürəm işimi
İşlədirəm dişimi
Zəhər məni sövq edir
Mənə böyük zövq verir
Sənə öyrətsəm çalmaq
Çətin olar sağ qalmaq
Öldürərlər səni də,
Şübhəsiz ki, məni də!